RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 243 (9410) 5 NOYABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Türk əsrinin Azərbaycan zamanı



## İlham Əliyevin Türk Dövlətləri Təşkilatının vahid güc mərkəzinə çevrilməsi üçün irəli sürdüyü təşəbbüslər liderlərin tam dəstəyini aldı

Azərbaycan həmişə türk dünyasının mütəşəkkilliyi üçün mühüm addımlar atıb, bu istiqamətdə yüksək töhfələr verib. Bütün dövrlərdə türk dövlətlərinin birliyi amallarına sadiq qalan Azərbaycanın bu istiqamətdə təşəbbüslərindən biri də Türk Şurasının yaradılması ilə bağlı sazişin məhz ölkəmizdə imzalanmasıdır.

14 il öncə, 2009-cu ildə Naxçıvanda keçirilən toplantıda imzalanan sazişə əsasən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) yaradılıb. Həmin zaman sazişi dörd ölkənin rəhbərləri - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri imzalayıblar. Lakin illər ötdükcə, xüsusilə son dövrlər Azərbaycanın və Türkiyənin liderliyi təşkilata üzv ölkələr arasında əməkdaşlıq və əlaqələri genişləndirib. 2021-ci ilin noyabrında şura Türk Dövlətləri Təşkilatına (TDT) çevrilib və onun üzvlərinin sayı artıb. Hazırda təşkilatın 5 əsas - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və 2 müşahidəçi üzvü - Macarıstan və Türkmənistan var. Birliyin üzvləri bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birini dəstəkləyir, eyni zamanda iqtisadi, siyasi əlaqələri durmadan genişləndirir, neft-qaz resurslarını Avropaya nəql edirlər.

Bu gün türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir. TDT-yə üzv ölkələrin coğrafi mövqeyinə diqqət yetirsək, görərik ki, onlar şərqdən qərbə tam bir nəqliyyat marşrutu - Orta dəhliz təşkil edir. Heç şübhəsiz, Azərbaycan bu marşrutda aparıcı rola malikdir. Çünki şərqlə qərbin qovuşuğunda yerləşən ölkəmiz mühüm tranzit mövqeyə sahibdir.

→ 6

# Azərbaycan Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəkləyir

## Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berboku qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Almaniya ikitərəfli əlaqələri, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və bütövlükdə Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Almaniyanın xarici işlər naziri ölkəsinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və bu xüsusda Avropa İttifaqının dəstəyi ilə aparılan Brüssel platformasını dəstəklədiyini diqqətə çatdırdı. O, həmçinin Azərbaycanın üzləşdiyi humanitar mina probleminin aradan qaldırılmasına Almaniyanın kömək göstərməyə hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı bu ilin martında Almaniyaya səfərini və səfər çərçivəsində Kansler Olaf Şolts, Prezident Frank-Valter Ştaynmayer ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəklədiyini bildirdi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bu üç ölkə arasında əməkdaşlığın indiyədək mümkün olmadığını qeyd etdi.

Dövlətimizin başçısı Ermənistanın son üç ildə Azərbaycanın Qarabağ bölgəsinə silah-sursatın və hərbi heyətin daşınmasını həyata keçirdiyini vurğuladı. Prezident İlham Əliyev sentyabrın 2-də Nikol Paşinyanın Ermənistan tərəfindən Azərbaycan ərazilərində yaradılmış və dəstəklənən qondarma rejimi təbrik etməsini və artıq özünü ləğv etmiş qondarma rejimin sentyabrın 9-da dırnaqarası "seçkilər" keçirməsini regionda vəziyyətin gərginləşməsinə xidmət edən təxribatçı addımlar olduğunu bildirdi. Prezident İlham Əliyev lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyini bərpa etdiyini və ölkəmizin Ermənistan ilə münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını, regional sülh gündəliyini dəstəklədiyini diqqətə çatdırdı.

Söhbət əsnasında Azərbaycan ilə Almaniya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Milli hədəf

## Qarabağ və Şərqi Zəngəzurun bərpası dövlət büdcəsinin prioritetlərindən biridir

30 il ərzində vəhşicəsinə dağıdılan, daşı daş üstündə qalmayan yurdlarımız bir-bir abadlaşdırılır, qurudulmuş bulaqları, çayları yenidən çağlayır, qırılmış meşələri pöhrələyir.

Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışa start verilməsi, minlərlə keçmiş məcburi köçkünün Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux, eləcə də Füzuli və Laçın şəhərlərinə qaytarılması isə, heç şübhəsiz, Şuşa Zəfərinin xalqımıza bəxş etdiyi misilsiz töhfədir.

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 315 ailə (1205 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 21 ailə (94 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə, bu günədək 3188 keçmiş məcburi köçkün dədə-baba yurdunda əbədi xoşbəxt həyata başlayıb.

→ 7

# Əbədi dalğalan, ey şanlı Bayraq!

Oktyabrın 15-i Azərbaycan xalqı üçün tarixi bir gün oldu. Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldan Pezident İlham Əliyev bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etdi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

→ 10

# Dünyanın 26 ölkəsini təmsil edən səyyahlar Ağdamda erməni vandalizminin izlərinin şahidi olublar

Dünyanın səyyah elitasının Qarabağ və Şərqi Zəngəzura ardıcıl səfərləri, hər dəfə heyətin daha da genişlənməsi onu göstərir ki, Azərbaycan dövlətinin bölgədə qısa müddətdə apardığı nəhəng və genişmiqyaslı quruculuq işləri dünyada heyrətlə qarşılanır. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, Ermənistanın törətdiyi müharibə cinayətlərinin yerində nümayişi baxımından da müstəsna əhəmiyyət daşıyır.

→ 8

# Türk dövlətləri beynəlxalq siyasətdə də ortaq mövqeyə sahibdirlər

Türk Dövlətləri Təşkilatının Zirvə toplantısında bütün türk dövlətlərinin liderlərinin bir araya gəlməsi həm də onlar arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafından xəbər verir. Bunda Azərbaycan və Türkiyənin böyük rolu var. Çünki iki qardaş ölkənin bütün sferalarda inkişafda olan münasibətləri digər türk dövlətlərinin də təşkilata cəlb edilməsinə imkan yaradıb.

Dövlət başçısı İlham Əliyev həmçinin yaxın keçmişə qiyabi ekskursiya edərək Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, 30 il ərzində üzləşdiyimiz işğal problemi, eləcə də 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbəmiz barədə söz açıb. Prezident İlham Əliyevin dediyi kimi, bu gün baş verən qlobal təhlükələr fonunda türk dövlətlərinin daha sıx birləşməsi, daha sürətli və çoxtərəfli inkişaf etməsi vacibdir.

→ 6

# Gələn ilin makroiqtisadi proqnozları davamlı inkişafdan xəbər verir




→ 11

# Azərbaycan Türk Dövlətləri Təşkilatında aparıcı mövqeyə malikdir

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Ayhan Satıcı mətbuata açıqlamasında bildirmişdir ki, Zirvə görüşü çərçivəsində dövlət başçılarının ikitərəfli görüşlərinin keçirilməsi türk dövlətləri arasında əlaqələrin gücləndiyinin bariz nümunəsidir.

Qeyd edək ki, 10-cu yubiley Zirvə görüşündə TDT-yə sədrlik Özbəkistan Respublikasından Qazaxıstan Respublikasına ötürüldü. Həmçinin onu da xatırladaq ki, Zirvə görüşünün nəticəsi olaraq Türk İnvestisiya Fondu fəaliyyətə başlayacaq. Fondun nizamnamə kapitalı 500 milyon dollardır. İnvestisiya qoyuluşlarına nəzər yetirəndə aydın olur ki, Azərbaycan birbaşa xarici investisiya qoyuluşunda türk dövlətləri arasında drayver rolu oynamaqdadır. Prezident İlham Əliyev Zirvə görüşündə vurğuladı ki, Azərbaycan indiyə qədər türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoymuşdur.

→ 6

# Milli Məclisdə "Mina təhlükəsi ilə mübarizə - partlayıcı sursatların ekosistemə təsiri" mövzusunda dinləmə keçirilib



**Noyabrın 4-də parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iş planına əsasən, Milli Məclisdə "Mina təhlükəsi ilə mübarizə - partlayıcı sursatların ekosistemə təsiri" mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə parlamentin komitə və komissiya rəhbərləri, deputatlar, ekologiya və təbii sərvətlər naziri, kənd təsərrüfatı naziri, ANAMA sədri, Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə komitənin rəhbəri, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Azərbaycanda fəaliyyət göstərən səfirlik və diplomatik nümayəndəliklərin rəhbərləri, Prezident Administrasiyasının və digər mərkəzi icra hakimiyyəti orqanlarının təmsilçiləri, mətbuat və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə qayıdışla bağlı ən böyük çətinlik minalanmış ərazilərin təmizlənməsidir. Təsadüfi deyil ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyev BMT-nin dayanıqlı inkişaf məqsədlərinin iqtisadi, sosial və ekoloji aspektləri əhatə edən prinsipləri sırasına mina təhlükəsinin əlavə edilməsini təklif etmişdir. Həmçinin Qoşulmama Hərəkatında mina təhlükəsinə məruz qalmış ölkələrin həmfikirlər qrupunun yaradılması sahəsində intensiv iş aparılır. Bugünkü dinləmə cənab Prezidentin bu sahədə irəli sürdüyü tezislərin dəstəklənməsi məqsədi daşıyır.

Sadiq Qurbanov bildirib ki, Ermənistan sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri törətməklə yanaşı, regionun ekoloji təhlükəsizliyinə də ciddi zərər vurub və vurmaqda davam edir. Ermənistanın münbit torpaqlara, su hövzələrinə, atmosferə, meşə fonduna, flora və faunaya, mineral sərvətlərə və enerji mənbələrinə vurmuş olduğu zərər təkcə ölkəmizdə deyil, bütövlükdə regionda ekoloji tarazlığın pozulması ilə nəticələnib.

Sadiq Qurbanov dinləmənin keçirilməsinə şərait yaradığı üçün Milli Məclisin Sədri Sahibə Qafarovaya öz təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev "Mina təhlükəsi ilə mübarizədə ekoloji tarazlığın qorunması", kənd təsərrüfati naziri Məcnun Məmmədov "İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsinin kənd təsərrüfatı fəaliyyətinə yaratdığı çətinliklər" mövzularında çıxış ediblər. Çıxışlarında Qarabağ və Şərqi Zəngəzura dəymiş ekoloji ziyan barədə fikirlərini bölüşən nazirlər, mina təhlükəsinin işğaldan azad olunmuş ərazilərdə başladılmış genişmiqyaslı bərpa və quruculuq işlərinə törətdiyi maneələrdən danışıblar.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov "İşğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlarla çirkləndirilməsinin ətraf mühitə təsiri" mövzusunda çıxış edərək, mina partlayışları zamanı yaranan plastik tullantıların ekoloji fəsadlara səbəb olduğunu, kənd təsərrüfatı üçün münbit torpaqların strukturuna mənfi təsir göstərdiyini vurğulayıb. O, minalarla çirklənmiş ərazilərin ekosistemin bir hissəsi olan insanların təkcə təmiz ekoloji şəraitdə deyil, ümumən yaşamaq hüququna da təhdidlər yaratdığını bildirib.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva "Dayanıqlı inkişaf məqsədləri üçün minaların ekosistemə təsirinin aradan qaldırılması" mövzusunda nitqində mina təhlükəsi ilə mübarizə fəaliyyətinin uğuru üçün qlobal təcrübəyə əsaslanaraq, yerli, milli və beynəlxalq tərəflər arasında güclü tərəfdaşlığın vacib amillərdən olduğunu qeyd edib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Həbib Mikayıllı "Mina problemi və beynəlxalq səylər" mövzusunda çıxış edib. O, işğaldan azad olunmuş ərazilərimizdə ilkin hesablamalara görə, 1,5 milyon minanın yerləşdirildiyini, Ermənistanın bu günədək mina xəritələrini verməkdən boyun qaçırdığını, bunun beynəlxalq hüququn yaşamaq və hərəkət azadlığı kimi fundamental prinsiplərinə zidd olduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli işğaldan azad olunmuş ərazilərimizdə aparılan minatəmizləmə fəaliyyətinin Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin başlatdığı Böyük qayıdış proqramının tərkib hissəsi olduğunu deyib, bu gün rəhbərlik etdiyi qurumla ANAMA arasında elmi-texniki sahədə səmərəli əməkdaşlığın davam etdiyini bildirib.

Tədbirdə Milli Məclisin komitə sədrləri Hicran Hüseynova, Tahir Mirkişili, Səməd Seyidov, Tahir Rzayev, Siyavuş Novruzov, deputatlar Fatma Yıldırım, İltizam Yusifov, Mahir Abbaszadə, Soltan Məmmədov, Vüqar Bayramov, Nigar Arpadarai çıxış edərək işğaldan azad edilmiş ərazilərimizdə davam edən mina terrorunun fəsadları barədə danışıblar, onun ölkənin sosial-iqtisadi inkişafına mənfi təsirlərini müqayisəli şəkildə analiz ediblər, bu sahədə maarifləndirməyə və beynəlxalq əməkdaşlığa ehtiyac olduğunu xüsusi vurğulayıblar. Minatəmizləmə fəaliyyətlərinin həyata keçirilməsində ANAMA-nın yüksək peşəkarlığını qeyd edən çıxışçılar, xarici ölkələri və beynəlxalq təşkilatları bu fəaliyyətlərə dəstək olmağa çağırıblar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov çıxışında mina terrorunun qurbanı olmuş azərbaycanlı jurnalistlərin ölümünə beynəlxalq ictimaiyyətin biganə münasibətindən söz açıb, onları ikili standartlar nümayiş etdirməkdə günahlandırıb.

Tədbirdə çıxış edən Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağcı Azərbaycan ərazilərinin 30 ilə yaxın davam edən erməni işğalından azad olunmasının üçüncü ildönümü münasibətilə təbriklərini çatdırıb, ölkəsinin minalara qarşı mübarizə sahəsində Azərbaycana hərtərəfli dəstək göstərdiyini və bu dəstəyin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko da çıxışında ANAMA-nın fəaliyyətini yüksək qiymətləndirib. O bildirib ki, Avropa İttifaqı mina təhlükəsi ilə mübarizədə Azərbaycanla əməkdaşlığa önəm verir, Azərbaycan hökumətinin mina təhlükəsinin aradan qaldırılması işini dəstəkləyir və bundan sonra da dəstəkləyəcək.

Sonra tədbirdə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi tərəfindən mina təhlükəsi ilə mübarizə fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

*"Azərbaycan"*

# Gələn il pensiyaların orta aylıq məbləği artacaq



**Noyabrın 4-də Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 6 məsələ - birinci oxunuşda təqdim olunan "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında", "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında", "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə olunub.**

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında müasir Azərbaycan dövləti öz tarixinin ən şərəfli, ən qüdrətli dövrünü yaşayır. Ərazi bütövlüyümüz və suverenliyimiz tam təmin edilib, azad Qarabağda və Şərqi Zəngəzurda nəhəng infrastruktur layihələri icra olunur, sosial islahatlar uğurla davam etdirilir. Aparılan islahatlar nəticəsində 2018-2023-cü illər ərzində orta aylıq əməkhaqqı 70 faiz, minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya 2,1 dəfə, sosial müavinətlər və təqaüdlər üzrə xərclər 5 dəfə, median əməkhaqqı 2,1 dəfə, əməkhaqqı fondu 2,6 dəfə artmış, ehtiyac meyarı yaşayış minimumuna çatdırılmışdır.

Diqqətə çatdırılıb ki, "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanıb. Fondun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və ya 10,4 faiz çoxdur.

Fondun gəlirlərinin 5 milyard 288,1 milyon manatının, yaxud 76,4 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması proqnozlaşdırılır ki, bu da cari ildəkindən 10,5 faiz, yaxud 504,5 milyon manat çoxdur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 64,0 faizi qeyri-büdcə sektorunun, 36,0 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcək.

2024-cü ildə fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 392 milyon manat proqnozlaşdırılır və bu 2023-cü il üzrə təsdiqlənmiş transfert məbləğindən 75,8 milyon manat və ya 5,2 faiz azdır.

Qeyd edilib ki, fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizini və ya 6 milyard 681 milyon 580 min manatını əhaliyə ödənişlər təşkil edəcək. Əhaliyə ödənişlər üzrə xərclərin 6 milyard 500 milyon manatı əmək pensiyalarının, 181,6 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin payına düşür.

Bildirilib ki, əmək pensiyalarının orta aylıq məbləğinin 2024-cü ildə 483 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 466 manatdan 50 manat artaraq 516 manata, əlilliyə görə pensiyanın orta aylıq məbləğinin cari ilin sonuna gözlənilən 367 manatdan 43 manat artaraq 410 manata, ailə başçısını itirməyə görə pensiyanın orta aylıq məbləğinin isə cari ilin sonuna gözlənilən 407 manatdan 47 manat artaraq 454 manata yüksəlməsi proqnozlaşdırılır. Cari və növbəti illərdə əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 46,8 faiz və 49,3 faiz olmaqla Avropa Sosial Xartiyasının tələblərinə cavab verəcək.

Komitə sədri nəzərə çatdırıb ki, "Əmək pensiyaları haqqında" qanuna edilmiş dəyişikliyə əsasən, pensiyaçıların sosial rifahının qorunması məqsədilə ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsis edilmiş əmək pensiyaçılarına ödənilən maddi yardımlar 2023-cü il yanvarın 1-dən etibarən pensiyaların tərkibinə daxil edilərək indeksləşdirilmişdir.

2024-cü ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 181,6 milyon manat vəsait nəzərdə tutulur. Bu, cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 6,6 faiz, yaxud 11,2 milyon manat çoxdur.

Sonra Musa Quliyev "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi barədə danışıb. O bildirib ki, 2024-cü ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur. Diqqətə çatdırılıb ki, İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 179,98 milyon manatı, yaxud 75,6 faizi işsizlikdən sığorta haqları üzrə yığımın, 57,95 milyon manatı, yaxud 24,4 faizi isə cari ilin sonuna qədər istifadə olunmamış vəsait hesabına formalaşacaq. Sığorta haqları üzrə yığımın 74,8 faizi qeyri-büdcə sektorunun payına düşəcək.

Növbəti ildə fondun xərcləri 13 istiqaməti əhatə edəcək. Xərclərin 30,7 faizi özünüməşğulluq tədbirlərinin, 23,1 faizi məşğulluq xidməti orqanının saxlanmasının, 18,9 faizi sosial sahədə xidmətlərin əməkhaqqının müştərək ödənilməsinin, 14,7 faizi peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldiləcək.

Cari illə müqayisədə 2024-cü ildə işsizliyə görə sığorta ödənişləri xərclərinin 4 milyon manat, yaxud 26,6 faiz, peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin 13 milyon manat, yaxud 37 faiz, sosial iş yerlərində işçilərin əməkhaqlarının bir hissəsinin ödənilməsi xərclərinin 2 milyon manat, yaxud 50 faiz artırılması, özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi xərclərinin 14,5 milyon manat, yaxud 16,6 faiz azaldılması nəzərdə tutulur.

Komitə sədri Musa Quliyev gündəlikdəki digər məsələləri təqdim edərək, bildirib ki, "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsinə uyğun olaraq, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilir.

Qeyd edilib ki, "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsində ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə növbəti il üçün ehtiyac meyarının həddi 270 manat məbləğində nəzərdə tutulur.

Sonra Musa Quliyev "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Sənədə əsasən, sığortaolunanın seçim hüququ il ərzində yarandıqda hüququn yarandığı gündən 15 gün ərzində öz seçimi barədə yazılı məlumatı sığortaedənə təqdim edir və məcburi dövlət sosial sığorta haqqının minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından hesablanması seçim hüququnun yarandığı gündən etibarən tətbiq edilir. Eyni zamanda sığortaolunan seçim hüququnu itirdikdə, məcburi dövlət sosial sığorta haqqının minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından hesablanması seçim hüququnun itirildiyi gündən etibarən dayandırılır. Bununla yanaşı, layihədə qanunun 14.8-ci maddəsinin əmək müqaviləsi əsasında işləyən işçilərə münasibətdə tətbiqi ilə bağlı dəqiqləşdirmə aparılıb.

Komitə sədri "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair qeyd edib ki, təklif olunan düzəlişlər işsizlikdən sığorta haqqı ala biləcək vətəndaşların kateqoriyasının genişləndirilməsinə, sığorta stajının azaldılmasına və uşaqlara görə əlavə ödənişlərə qoyulan məhdudiyyətin aradan qaldırılmasına xidmət edir.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili müzakirəyə təqdim olunan qanun layihələri ilə bağlı fikirlərini bildirib. Komitə sədri qeyd edib ki, DSMF-nin xərcləri dövlət büdcəsi xərclərinin təxminən 20 faizinə bərabər olmaqla 1 milyondan çox insana xidmət edir. Layihələrdə DSMF-nin gəlirlərinin növbəti ildə təxminən 10 faiz artırıldığını deyən komitə sədri bu təklifin gələn ildə iqtisadi artımla bağlı gözləntilərə uyğun olduğunu bildirib.

İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında komitə sədri müsbət rəyini bildirərək, məşğulluğun təmini ilə bağlı daha çox vəsaitlərin sərf olunmasını, vətəndaşların peşə hazırlığı və əlavə təhsilin təşkili kimi tədbirlərin daha geniş və səmərəli şəkildə həyata keçirilməsini müsbət qiymətləndirib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev DSMF-nin büdcəsinin ümumi büdcənin 10,4 faizini təşkil etdiyini söyləyib. Burada məcburi dövlət sosial sığorta üzrə gəlirlərin 11 faiz proqnozla artırıldığını və onun daxilində qeyri-büdcə sektorunun 13 faiz artırıldığını söyləyib. Növbəti ildə cari ildəkindən 5 faiz, yəni 76 milyon manat az olaraq, dövlət büdcəsindən transfert ediləcək. Bu o deməkdir ki, DSMF-nin büdcəsində dövlət büdcəsindən ödənilən vəsaitin həcmi cəmi 20 faiz təşkil edir, 80 faiz isə sosial sığorta haqları hesabına yığılan vəsaitdir. Bu, DSMF-nin müstəqilliyi, maliyyə dayanıqlığı və gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Nazir bildirib ki, əmək pensiyalarının maliyyələşdirilməsi üçün 10 faizdən daha çox vəsait nəzərdə tutulub. Yaradılmış sığorta ehtiyatı, onun investisiyaya yönəldilməsi məsələsi ilə bağlı qeyd edilib ki, bu ilin avqust ayından başlayaraq, noyabrın 1-dək 600 milyon manat artıq yerləşdirilib. Bu investisiyadan gələn gəlirlər pensiya və sosial islahatlara, şəhid ailələrinin, müharibə əlillərinin təminatına və digər sosial məqsədlərə yönəldiləcək.

Sahil Babayev İşsizlikdən Sığorta Fondunun büdcəsi ilə bağlı fikirlərini açıqlayaraq, bildirib ki, qarşıdakı dövrdə əsas məsələlərdən biri qeyri-büdcə təşkilatlarından daxilolmaların artırılmasıdır və növbəti ildə bu göstərici 17 faizdən çox planlaşdırılır. O, fondun büdcəsində hər il ehtiyatın yarandığını və bunun proqnozlaşdırılan gəlirdən artıq yığılan gəlirlə bağlı olduğunu deyib. Qeyd edib ki, işədüzəltmə ilə bağlı işlər daha da aktivləşib və son 5 il ərzində ümumilikdə 1 milyon vətəndaşa məşğulluq xidməti göstərilib. O, işsizliyə görə sığorta ödənişləri ilə bağlı artımın nəzərdə tutulduğunu söyləyib.

Daha sonra nazir Sahil Babayev növbəti ildə yaşayış minimumu, ehtiyac meyarının həddi, habelə "Sosial sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklər barədə danışıb.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün büdcə layihələrinə dair rəyləri təqdim edib.

Sonra iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov çıxış edib. O, təqdim olunan büdcə layihələrinin Azərbaycan Respublikasının 2026-cı ilə qədər dövrü əhatə edən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq hazırlandığını söyləyib, əhalinin maddi rifahının yüksəldilməsi istiqamətində bütün sahələrdə görülən işlərin vacibliyini qeyd edib.

Nazir müavini bildirib ki, ötən ilin büdcə göstəriciləri, həm dövlət və icmal büdcələri, həm də DSMF və İşsizlikdən Sığorta Fondunun büdcələri yaxşı səviyyədə icra olunub. Ölkə başçısının rəhbərliyi ilə son illərdə aparılan islahatların iqtisadiyyatın dayanıqlılığını təmin etməsi buna imkan yaradıb.

Diqqətə çatdırılıb ki, sosial sığorta yığımları üzrə artım dinamikası müşahidə olunur. Belə ki, bu ilin 9 ayı ərzində dövlət sosial sığortası üzrə daxilolmaların proqnozu 109 faiz icra olunub və 3,8 milyard manat vəsait toplanıb. İşsizlikdən sığorta üzrə daxilolmaların proqnozu 112 faiz icra olunub, bu daxilolmalar 15 faizdən çox artıb. İcbari tibbi sığorta haqları üzrə daxilolmaların proqnozu 106 faiz icra olunub və 683 milyon manat vəsait daxil edilib.

Sahib Ələkbərov təqdim olunan büdcə proqnozlarının yüksək səviyyədə yerinə yetirilməsi üçün gələcəkdə daha yaxşı imkanların olacağını söyləyib.

Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov 2024-cü ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan sənədlər, o cümlədən DSMF-nin və İşsizlikdən Sığorta Fondunun büdcə layihələrinə Dövlət Statistika Komitəsində baxıldığını, bununla bağlı informasiya təminatının həyata keçirildiyini və vaxtlı-vaxtında rəqəmlərin təqdim edildiyini, habelə müxtəlif proqnozların ssenarilərinin hesablanması üçün istifadə olunan rəqəmlərin yoxlanıldığını və heç bir fərqin olmadığını bildirib.

Sonra təqdim olunan sənədlər ətrafında müzakirələr aparılıb.

Parlamentin komitə sədrlərinin müavinləri Məlahət İbrahimqızı, Əli Məsimli, üzvləri Vüqar Bayramov, Rüfət Quliyev, Arzu Nağıyev, İlham Məmmədov, Soltan Məmmədov, Aydın Hüseynov, Jalə Əliyeva, Ziyad Səmədzadə, Sevinc Hüseynova çıxış ediblər, qanun layihələri barədə fikirlərini və qeydlərini diqqətə çatdırıblar.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deputatların suallarını cavablandırıb, qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda gündəliyə daxil edilən qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Almaniya Azərbaycana mina təhlükəsi ilə mübarizədə kömək etməyə hazırdır"



**"Hazırda Cənubi Qafqaz Avropa üçün maraqlı bölgədir. Cənubi Qafqaz, xüsusilə Azərbaycan Avropa üçün strateji tərəfdaşdır.**

Regionda hamının sülhə ehtiyacı var. Ardıcıl və davamlı sülhün təmin olunması inkişaf üçün çox vacibdir. Almaniya Azərbaycana mina təhlükəsi ilə mübarizədə kömək etməyə hazırdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Almaniyanın xarici işlər naziri Annalena Berbok azərbaycanlı həmkarı Ceyhun Bayramovla keçirdiyi birgə mətbuat konfransında deyib. Xanım Berbok qeyd edib ki, Azərbaycan müharibədən sonra bərpa və qayıdış prosesini həyata keçirir.

Azərbaycanın və Ermənistanın qonşu ölkələr kimi dinc və yanaşı yaşamağının vacibliyini qeyd edən Almaniya XİN-in rəhbəri rəsmi Bakının sülh sazişi istiqamətində səylərini yüksək qiymətləndirib.

# "Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 70 faizi Azərbaycanın payına düşür"

**"Uzun illər ərzində Azərbaycan ilə Almaniya arasında ticarət, enerji, kənd təsərrüfatı, qarşılıqlı sərmayələrin qoyulması, infrastruktur layihələrində qarşılıqlı iştirak sahələrində əlaqələr uğurla inkişaf edir".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov noyabrın 4-də Almaniyanın xarici işlər naziri Annalena Berbokla birgə keçirilən Mətbuat konfransında söyləyib.

Nazir deyib ki, Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir və onlar müxtəlif sahələrdə layihələrin həyata keçirilməsinə cəlb olunublar.

"Almaniyanın Cənubi Qafqaz ölkələri ilə olan ticarətinin 70 faizi Azərbaycanın payına düşür. 2022-ci ildə ölkələrimiz arasında qarşılıqlı ticarət dövriyyəsi 1,3 milyard ABŞ dolları olub. 2023-cü ilin ilk doqquz ayının nəticələrini olduqca müsbət qiymətləndirmək olar. İlk 9 ay ərzində ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 60 faiz artıb", - deyə C.Bayramov əlavə edib.

# Azərbaycanın XİN başçısı alman həmkarını torpaqlarımızın işğalının ağır nəticələri barədə məlumatlandırıb

**Azərbaycan ilə Almaniya arasında bir çox istiqamətlərdə, o cümlədən enerji, nəqliyyat, tranzit bağlantıları, alternativ enerji və bir sıra digər sahələrdə əməkdaşlığın çox böyük potensialı mövcuddur.**




AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov noyabrın 4-də Almaniyanın xarici işlər naziri Annalena Berbokla birgə keçirilən mətbuat konfransında bildirib.

Almaniyalı həmkarı ilə bölgədə olan son vəziyyət barədə ətraflı fikir mübadiləsi apardıqlarını vurğulayan Ceyhun Bayramov qeyd edib: "Həmkarıma Azərbaycan torpaqlarının 30 illik işğalı, işğalın ağır nəticələri, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın azad olunması, eyni zamanda postmünaqişə dövründə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması, həmçinin regionun gələcək inkişafı baxımından Azərbaycanın baxışını bir daha çatdırdım". Nazir deyib ki, eyni zamanda görüşdə son üç il ərzində ölkəmiz tərəfindən Ermənistan-Azərbaycan postmünaqişə normallaşması kontekstində həm sülh müqaviləsinin irəli aparılması, eyni zamanda kommunikasiyaların açılması, həmçinin iki ölkə arasında sərhədlərin delimitasiyası istiqamətində atılan addımlar barədə müzakirələr aparılıb.

# *Ceyhun BAYRAMOV:* "Ermənistanla münasibətlərin normallaşdırılmasının alternativi yoxdur"

**"Azərbaycan hesab edir ki, Ermənistanla münasibətlərin normallaşdırılmasının, sülhün alternativi yoxdur. Təəssüf ki, Azərbaycanın bu barədə son təşəbbüslərinə Ermənistan tərəfindən hələ də cavab verilməyib. Ermənistan tərəfinin cavabı gözlənilir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov noyabrın 4-də Almaniyanın xarici işlər naziri Annalena Berbokla birgə keçirilən mətbuat konfransında bildirib.

Azərbaycan son üç ildə məsələnin dialoq yolu ilə həllini tapması üçün mümkün addımları atdığını qeyd edən Ceyhun Bayramov deyib ki, törədilən təxribatların qarşısını almaq mümkün olmadıqda Azərbaycan bütün beynəlxalq hüququ, humanitar hüququ gözləyərək qısamüddətli antiterror tədbirləri həyata keçirib. Bunu BMT-nin bölgəyə səfər etmiş missiyası da təsdiqləyib. Bunu həmin vaxt Ermənistanın baş nazirinin də təsdiqlədiyini xatırladan nazir Paşinyanın sonradan bunu inkar etdiyini və ziddiyyətli açıqlamalar verdiyini diqqətə çatdırıb.

# *Almaniya XİN:* "Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləmişik"

**"Mən hər zaman ifadə etmişəm ki, Qarabağ Azərbaycanın ərazisidir. Almaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Almaniyanın xarici işlər naziri Annalena Berbok Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirilən mətbuat konfransında söyləyib.

Nazir deyib: "Almaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Azərbaycanlılar öz torpaqlarına qayıtmalıdırlar".

# Almaniyanın xarici işlər naziri Bakıda yalan bəyanat verdi

**Almaniyanın xarici işlər naziri Annalena Berbok Azərbaycana səfəri zamanı Xarici İşlər Nazirliyində mətbuat konfransında yalan açıqlama ilə çıxış edib.**

Belə ki, xanım nazir Ermənistanda Qarabağdan köçmüş ermənilərlə görüşdüyü təqdirdə, Azərbaycana səfəri zamanı azərbaycanlı köçkün və qaçqınlarla görüşüb-görüşmədiyi barədə "Real" Televiziyasının müxbirinin sualına yanlış və yalan dolu cavab verməklə kifayətlənib.



AZƏRTAC xəbər verir ki, alman nazir əvvəlcə suala cavab verərkən özünün Qarabağdan Ermənistana getmiş ermənilərlə görüşünü uzun-uzadı təsvir etdi, daha sonra Azərbaycanın xarici işlər nazirinin sualın mahiyyətini xatırlatmasından sonra bildirdi ki, o, bu gün Bakıda Ermənistandan köçmüş şəxslərlə görüş keçirib.

Etibarlı mənbələrdən əldə olunmuş məlumata əsasən, əslində, Almaniyanın xarici işlər naziri Bakının "Mənzərə" restoranında vətəndaş cəmiyyətinin bəzi nümayəndələri ilə görüşünə istinad edirmiş. Əldə etdiyimiz məlumata əsasən, Almaniya nazirinə qaçqın və məcburi köçkünlərlə görüş üçün təklifi verilsə də, onun bu görüşdən imtina etdiyi məlumdur.

Almaniya naziri anlamalıdır ki, Azərbaycan qaçqınlarının və məcburi köçkünlərinin 30 ildən artıq davam etmiş əzab-əziyyətini anlamaq üçün onlarla görüş vacib idi və bu kimi yalan açıqlamalar Azərbaycan-Almaniya ikitərəfli münasibətlərinə müsbət təsir etmir.

# Ali Baş Komandan İlham Əliyevin Prezident seçilməsinin 20 illiyi ilə əlaqədar Naxçıvan şəhərində hərbi yürüş keçirilib

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar Naxçıvan şəhərində hərbi yürüş keçirilib.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə keçirilən yürüş Naxçıvan şəhərindəki Heydər Əliyev prospektindən başlayıb və müəyyən edilən marşrut üzrə Zəfər parkınadək davam edib.

Hərbi qulluqçularımız və gələcəyin zabitləri yürüşləri ilə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ehtiramlarını və Azərbaycan Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etmək şərəfinin yaratdığı qürur və iftixar hisslərini nümayiş etdiriblər.

Yürüş iştirakçıları hərbi orkestrin müşayiəti ilə hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar və şüarlar səsləndiriblər.

İzləyənlər tərəfindən hərbi yürüş böyük maraq və alqışlarla qarşılanıb. Sonda Əlahiddə Ümumqoşun Ordunun Nümunəvi Hərbi Orkestrinin konserti olub.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Orduda cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar keçirilən silsilə tədbirlər davam edir.

# Naxçıvanda "Zəfərə gedən 20 il" mövzusunda tədbir




**Noyabrın 4-də Naxçıvanda muxtar respublikanın Nazirlər Kabinetinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyətə gəlişinin 20 illiyi və Zəfər Gününün üçüncü ildönümünə həsr olunmuş "Zəfərə gedən 20 il" mövzusunda tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2023-cü ilin ölkəmiz, eləcə də muxtar respublika üçün əlamətdar hadisələrlə dolu bir il kimi başa çatacağını bildirib. Qeyd edilib ki, "Heydər Əliyev İli"ndə Naxçıvanda yeni siyasi idarəetmə sistemi tətbiq olunur. Muxtar respublikanın hərtərəfli inkişafına hesablanmış dövlət proqramı təsdiqlənib və yeni layihələrin reallaşdırılması üçün böyük maliyyə vəsaiti ayrılıb. Eyni zamanda bu il suverenliyimizin tam bərpa olunmasının təntənəsini yaşayırıq. Bu uğurların təməlində dayanan cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 20 illiyini böyük qürur və sevinclə qeyd edirik.

Ümummilli Liderimizin 2003-cü ildə müraciəti zamanı səsləndirdiyi "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" ifadəsini xatırladan səlahiyyətli nümayəndə vurğulayıb ki, dövlət başçısının ötən 20 ildə ata vəsiyyətini yerinə yetirməklə bu inamı doğruldub. Dövlət başçımızın müstəsna xidmətləri nəticəsində Azərbaycanda yeni reallıqlar, yeni platformalar yaranıb.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov çıxışında qeyd edib: "Ölkəmizdə son 20 ilin uğurları, tarixə yazılan möhtəşəm qələbələr deməyə əsas verir ki, dövlətimizin başçısı qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olmaqla Azərbaycanın timsalında "Güclü dövlət" konsepsiyasını reallaşdırıb".

Baş nazir bildirib ki, ölkə Prezidentinin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında yeni idarəetmə formasının yaradılması, nümayəndəlik institutunun təsisi, struktur islahatlarının aparılması muxtar respublikanın inkişafında əhəmiyyətli rol oynayır.

Tədbirdə muxtar respublikanın iqtisadiyyat naziri Tapdıq Əliyev, əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov və Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək, dövlətimizin başçısının 20 illik hakimiyyəti dövründə Azərbaycanın keçdiyi misilsiz inkişaf yolunun müxtəlif məqamlarına nəzər salıblar. Xüsusilə vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi sahədə həyata keçirilən islahatların məqsədi iqtisadi səmərəliliyin və rifahın təmin olunması prinsiplərinə söykənir.

Sonda Naxçıvan televiziyasının hazırladığı "Zəfərə gedən 20 il" qısa filmi nümayiş etdirilib.

# *Annalena BERBOK:* "Almaniya Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində vasitəçi olmağa hazırdır"

**"Almaniya Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində vasitəçi olmağa hazırdır".**

AZƏRTAC xəbər verir ki, bunu Almaniyanın xarici işlər naziri Annalena Berbok Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirilən mətbuat konfransında deyib.

Demarkasiyanın çətin və uzun proses olduğunu diqqətə çatdıran nazir normallaşma prosesində Avropa formatının əhəmiyyətini qeyd edib. "Məqsədimiz etimad quruculuğu ilə məşğul olmaqdır. Mina təhlükəsi ilə mübarizə üçün layihəmizi bugünkü görüşdə təqdim etdik. Əməkdaşlığımızı davam etdirəcəyik", - deyə A.Berbok bildirib.

# *Nazir:* "Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə beynəlxalq hüquq çərçivəsində hörmət edilməlidir"

**"Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, ərazi adlarına beynəlxalq hüquq çərçivəsində hörmət edilməlidir".**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov noyabrın 4-də Almaniyanın xarici işlər naziri Annalena Berbokla birgə keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, Azərbaycan 30 il işğaldan əziyyət çəkib, insanlar evlərindən ən ağır şəraitdə didərgin salınıblar. Vaxtilə buna heç kəsin reaksiyası olmadığı halda, indi sakit, dinc şəraitdə, həm də özlərinin istəyi ilə Qarabağı tərk edən ermənilərə daha çox can yandırılır.

"Azərbaycan sülh sazişinin bağlanması istiqamətində bütün formatda danışıqlara hazırdır və bu istiqamətdə səylərini davam etdirir", - deyə nazir vurğulayıb.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

**8 Noyabr - Zəfər Günüdür. İşğalçı Ermənistan üzərində tarixi Qələbəmizin üçüncü ilidir. Böyük Qələbə milli yaddaşın qızıl fondudur. Bu möhtəşəm Qələbə başımızın ucalığı, alnımızın açıqlığı, əbədi qürurumuzdur. Azərbaycan xalqı və dövləti bu ehtişamlı Zəfərə bir gündə, bir ildə hazırlaşmadı. Torpaqlarımızı itirdiyimiz gündən qəti sözümüz var idi: tarixi yurdumuzu düşmən tapdağında qoymayacağıq! Amma əsl vaxt ölkəmizin iqtisadi qüdrətinə, hərbi potensialına bağlı idi.**



## Liderliyin zəfər təntənəsi

**İlham Əliyevin şah əsəri azad Qarabağ, suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycandır.**

**O, Qarabağ Zəfəri ilə yalnız Heydər Əliyevin vəsiyyətinə əməl etməyib, həm də Cümhuriyyət dövründən bu günədək Azərbaycanda heç bir dövlət xadiminin yerinə yetirə bilmədiyi vəzifənin öhdəsindən gəlib.**

**İlham Əliyev xalqın əyilmiş qəddini dikəldib, zədələnmiş qürurunu, ləyaqətini bərpa edib.**

**İyirmi il əvvəl üçrəngli bayrağın qarşısında diz çökən, onu öpüb gözünün üstünə qoyan gənc milli lider dediyi sözün arxasında durdu, vədinə əməl etdi.**

Xalqları dünyada məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir.

Belə nadir şəxsiyyətlərdən biri, müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib.

Ulu Öndərin vətəndaş qarşıdurmalarından, parçalanma təhlükəsindən, sosial-iqtisadi problemlər məngənəsindən xilas edərək inkişaf yoluna çıxardığı, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində əzmlə irəliləməsinə nail olduğu Azərbaycanın taleyini 2003-cü ilin oktyabrında öz yolunun layiqli davamçısı İlham Əliyevin güclü, əmin əllərinə etibar etməsi isə xalqımızın yeni tariximizdəki növbəti doğru seçimi idi.

Xalqın bu seçimi ölkəmizin daha böyük uğurlarına yol açdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqilliyini yeni qazanmış dövlətimizi tarixinin ən qüdrətli ölkəsinə çevirdi, ən güclü inkişaf mərhələsinə yetirdi. Azərbaycanın sosial-iqtisadi inkişafı üçün misilsiz nailiyyətlərə imza atdı. Bütün mövcud resursları ən optimal qaydada ölkənin tərəqqisinə yönəltdi. Azərbaycanı başdan-başa abadlıq-quruculuq meydanına çevirdi. Həyata keçirilən məqsədyönlü dövlət proqramları ilə bir sıra problemlərin qısa müddətdə həllinə nail oldu.

Prezident İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi dövlətçilik kursuna uyğun olaraq Azərbaycanın sözün əsl mənasında həqiqi müstəqilliyini təmin etdi. Ölkənin sosial-iqtisadi cəhətdən kiminsə asılılığında olmasına imkan vermədi. Əksinə, Azərbaycanı ən önəmli, rəyi, mövqeyi ilə hamının hesablaşmağa məcbur qaldığı nüfuzlu ölkəyə çevirdi. Azərbaycan regionun lider dövləti kimi bölgədəki yeni reallıqların əsas müəllifi, iqtisadi-siyasi proseslərin başlıca iştirakçısı oldu. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə həyata keçirilən qlobal enerji-kommunikasiya layihələri regionun geopolitik mənzərəsini yenidən müəyyənləşdirdi. Bu mənzərədə Azərbaycan qlobal inkişaf proseslərinin mərkəzindədir. Dünya iqtisadiyyatı üçün yeni həyat mənbəyi rolunu oynayan bir çox şəbəkə, enerji-kommunikasiya xətti məhz Azərbaycanda kəsişir və burada üst-üstə düşərək, dünyada dayanıqlı inkişafa, sülhə, rifaha can atan hər kəs üçün fayda yaradır.

Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Fərqli mədəniyyətlərin, Şərq və Qərb sivilizasiyalarının təmas mərkəzidir. Multikulturalizm, tolerantlıq örnəyidir. Aydın strateji baxışı, faydalı təşəbbüsləri ilə ümumilikdə dünyamızın bu günü və gələcəyinə dəyərli töhfələr verən ölkədir. Belə bir səviyyəyə Azərbaycan ilk növbədə iqtisadi inkişafı sayəsində nail oldu. Çünki iqtisadi imkanlar, maliyyə resursları bütün inkişaf proseslərinin təməl qaynağıdır. Azərbaycanın getdikcə yüksələn iqtisadi imkanları, qazanılan sosial-iqtisadi nailiyyətlər ölkəmizin bu günü və gələcəyi üçün bir sıra strateji qərarların icrasına həyat verir. Onların reallaşdırılmasına imkan yaradır.

Azərbaycan müasir dünyamızın çağırışlarına münasibətdə çox həssasdır. Ölkə həyatına gətirilən innovasiyalarla, mövcud resursların insan kapitalına çevrilməsi üçün görülən işlərlə özünü sürətlə gələcəyə, dəyişən çağırışlara hazırlaya bilir. Bu məsələlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da əməyi çox böyükdür. Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən sosial-humanitar layihələr inkişaf proseslərinə, sosial-iqtisadi problemlərin həllinə mühüm töhfələr verir.

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Heydər Əliyevin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin qısa təhlili belə bu fikrin təxmin deyil, qəti qənaət olduğunu sübut edir. Ümummilli Liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Prezident İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir. Prezidentimiz mötəbər beynəlxalq təşkilatların - BMT-nin, NATO-nun, ATƏT-in kürsülərində inamlı, cəsarətli, məntiqli çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır.

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq dahi şəxsiyyətin həyat fəlsəfəsidir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə geridə qoyduğumuz 20 il ərzində Azərbaycan tarxinin ən şanlı dövrünü yaşadı. Ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək etibarını qazanmış və dərin minnətdarlıq hissi ilə 100 illik yubileyini qeyd etdiyimiz dünyaşöhrətli siyasətçi, əbədiyaşar lider Heydər Əliyevin milli dövlətçilik məktəbininin layiqli yetirməsi, Ulu Öndərin azərbaycançılıq məfkurəsini dərindən mənimsəmiş, zəfər salnaməsinin memarı İlham Əliyevin 20 illik əvəzolunmaz siyasi fəaliyyəti tarixin ən qüdrətli Azərbaycanını ərsəyə gətirmişdir.

Azərbaycan xalqının tarixinə ən parlaq Qələbəni də məhz Müzəffər Ali Baş Komandan olaraq İlham Əliyev yazdı, torpaqlarımızı işğaldan azad edərək xalqın 30 illik həsrətinə son qoydu. 20 illik prezidentlik dövrünün zirvəsində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və 20 sentyabr 2023-cü il tarixdə lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük qayıdışa açmış, 8 Noyabr-Zəfər Gününü xalqımızın qürur mənbəyinə çevirmişdir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan, onun formalaşdırdığı yenilməz ordu və "dəmir yumruğ"a çevrilmiş xalq Ulu Öndərin ən ümdə arzusunu 17 ildən sonra gerçəkləşdirdi. "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim… Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır" sözləri hər birimizin qürur mənbəyinə çevrildi.

44 günlük Vətən müharibəsi Azərbaycan Prezidentinin həm də elə ali keyfiyyətlərini üzə çıxardı ki, dünya onu heyrətlə izlədi. Ölkəsinə qazandırdığı qalibiyyət Vətən, yurd, xalq, insan sevgisinin zirvə nöqtəsi idi. O, müharibə dövründə dünyaya təkcə qalib sərkərdə, Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasətçi, adil dövlət başçısı, mahir diplomat kimi görünmədi. Dünya onu həm də hər zaman xalqını düşünən, onun qayğıları ilə yaşayan nümunəvi lider kimi tanıdı. Şərəfli ömrün xalqa, millətə, dövlətə və dövlətçiliyə həsr olunmuş hər anı qiymətlidir. Bu mənada ölkə rəhbəri İlham Əliyevin ömrü illərlə yox, əməllərlə ölçülməlidir. Əməllər isə o qədər möhtəşəm, o qədər dəyərlidir ki, onun qiymətini bu gün verməkdə, ifadə etməkdə çətinlik çəkmək olar. Amma tarix bütün çətinliklərin fövqündə dayanır və əsl qiyməti də o verəcəkdir.

Prezident İlham Əliyevin 20 illik siyasi hakimiyyəti Azərbaycan tarixində epoxal bir hadisədir.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini - sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlət başçısı İlham Əliyev xarici KİV-ə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. İlk növbədə güclü və qüdrətli dövlət yaratmaq lazım gəlirdi və Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən 20 ilə nəzər salsaq, görərik ki, dövlət başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. İqtisadi və sosial sahədə qazanılmış bir neçə göstəricini diqqətə çatdırmaq kifayətdir. Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihənin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, "Şərq-Qərb" və "Şimal-Cənub", beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Mübaliğəsiz deyə bilərik ki, İlham Əliyev XXI əsrdə Qafqazda yeni tarix yaradır, bölgənin geosiyasi coğrafiyasını müəyyən edir, eləcə də dövlətimizi və xalqımızı daha böyük zəfərlərə daşıyacaq layihələrə, strateji qərarlara imza atır. İlham Əliyevin zəfərləri yalnız hərbi sahə ilə məhdudlaşmır. Onun Azərbaycanın iqtisadiyyatında, elmində, təhsilində, səhiyyəsində, idmanında qazandığı zəfərləri vətəndaşımız öz həyatında hiss edir. Bu mənada dövlət başçımızın hərtərəfli, gərgin və məhsuldar siyasi fəaliyyətində mükəmməl nizam, qeyri-adi ardıcıllıq, daim artan dinamika var. Bu dinamikanın əsasında nələr dayanır? Regionda və dünyada söz sahibinə çevrilmiş bir dövlətin ali məqamından qaynaqlanan məsuliyyət, özünə qarşı hədsiz tələbkarlıq, öz üzərində daim işləmək vərdişi, təcrübə, intellekt və əlbəttə ki, gendən, fitrətdən gələn keyfiyyətlər. İlham Əliyevin dövlətimiz və millətimiz üçün taleyüklü qərarların qəbul ediləcəyi anlarda, ən ekstremal şəraitdə belə müdrikcəsinə davranmasının sirri nədir? Bu sualın ən dəqiq cavabını Qarabağa çoxsaylı səfərlərinin birində cənab Prezidentin özü verib: "İradə, cəsarət, öz gücünə əminlik!"

Prezidentin hər çıxışının, hər bir sözünün arxasında dərin zəkanın dayandığı bütün parametrləri ilə özünü büruzə verir. O, ən dramatik, ən həssas məsələləri elə təqdim və təhlil edir ki, siyasətin içində olan peşəkar diplomatın belə onu mübahisələndirmək üçün şansı qalmır.

İlham Əliyev Azərbaycan tarixinə həm də ilklərin müəllifi kimi düşüb. Dövlət başçısı hər il, hər ay, az qala hər gün bir ilkə imzasını atır. 2023-cü il də bu baxımdan istisna olmadı. 23 aprel İlham Əliyevin imzası ilə tarixə böyük və qızıl hərflərlə yazıldı. 2023-cü il aprelin 23-də Həkəri çayının üzərində Azərbaycanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi quruldu. Prezidentin özünün də dediyi kimi, 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sentyabrın 19-20-də isə Ermənistan silahlı birləşmələrinin Qarabağdakı tör-töküntüləri 23 saat ərzində təmizləndi. Amma buna qədər sarsılmaz xalq-ordu-iqtidar birliyi dünya hərb tarixinə öyrənilməli nümunə kimi yazılan, 44 gün davam edən möhtəşəm Zəfər yolunu qət etmişdi.

Üç il öncə başlayan Vətən savaşında Azərbaycan ATƏT-in Minsk qrupundakı güclərin bacarmadığını təkbaşına bacardı: 30 illik Qarabağ münaqişəsini həll etdi! Azərbaycan BMT-nin missiyasını özü yerinə yetirdi: dörd qətnamənin icrasını ölü nöqtədən tərpətdi; düşməni öz sərhədlərinə qədər qovub, ərazi bütövlüyünü bərpa etdi. 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu öz Ali Baş Komandanının bilavasitə rəhbərliyi altında Ermənistanın silahlı qüvvələrini darmadağın etdi, düşməni diz çökməyə, təslim aktını imzalamağa məcbur etdi. Sentyabr ayında həyata keçirilən lokal antiterror əməliyyatı isə problemi kökündən və birdəfəlik həll etdi: 30 il ərzində Qarabağda at oynadan qondarma qurum ağ bayraq qaldırıb özü-özünü ləğv etmək barədə qərar qəbul etməyə məcbur oldu.

Bununla da Azərbaycan dövləti bütün torpaqları üzərində tam suverenliyini bərqərar etdi. Bu gün hamımız fəxrlə deyirik ki, Azərbaycan postsovet məkanında öz ərazi bütövlüyünü qalibiyyətli müharibə yolu ilə bərpa edə bilmiş ilk və yeganə ölkədir.

Bu gün tam əsasla deyə bilərik ki, Qarabağdakı tam və qəti qələbə İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin həm məntiqi nəticəsi, həm də ən yüksək zirvəsi oldu. Təsadüfi deyil ki, üçrəngli bayrağımız da Xankəndi, Xocalı, Xocavənd, Ağdərə, Əsgəran üzərində məhz həmin gün - oktyabrın 15-də qaldırıldı.

İlham Əliyev son 20 ildə rəhbərlik etdiyi dövrdə Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi. Mürəkkəb dünyada baş verən proseslər fonunda Azərbaycanın sabit və davamlı inkişafı isə İlham Əliyevin 20 illik dövlət quruculuğu və inkişafı istiqamətində fəaliyyətinin bariz nümunəsidir.

Prezident İlham Əliyevin 10 noyabr 2020-ci il Bəyanatından sonra apardığı siyasət yeni bir dövlətçilik fəlsəfəsi idi. Bir tərəfdən Ermənistanın kapitulyasiyasının nəticələrinin reallaşdırılması istiqamətində fəaliyyət genişləndi, digər tərəfdən Böyük qayıdış proqramına start verildi.

Vətən müharibəsindən antiterror əməliyyatınadək olan dövrün təhlili göstərir ki, bu zaman ərzində həyata keçirilən siyasət böyük uğurla nəticələndi. Azərbaycan Ermənistanda olan revanşistlərin və onları dəstəkləyənlərin yeni müharibə arzusunun reallaşdırılmasına yol vermədi, Azərbaycanın yeni müharibəyə cəlb edilməsinin qarşısını aldı, strateji məqsədə lokal terror əməliyyatı ilə nail oldu.

Dövlət başçısı İlham Əliyevi başqalarından fərqləndirən digər keyfiyyətləri də var: siyasətdə sistemliliyi qorumaq, səbirli, soyuqqanlı, təmkinli davranmaq, sözündə və qərarlarında dəqiq olmaq. Onun atacağı addımı öncədən müəyyənləşdirmək çətindir. Çünki o, nəyi və nə zaman edəcəyini yalnız özü bilir. O, Zəfərlə başa çatan Vətən müharibəsində bir daha sübut etdi ki, hər şeyi zamanında və həm də doğru məcrada edir.

20 illik ağır zəhmət bahasına Prezident İlham Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinə keçidini təmin etdi. Onu sürətlə dəyişən müasir dünyada öz imzası və sözü olan qüdrətli dövlətə çevirdi. Bu sözü bir daha təkrarlamaq istərdik: Prezidentliyinin 17-ci ilində Azərbaycanı hərb meydanında qalib dövlətə çevirən İlham Əliyev xalqımıza sözlə ifadəsi mümkün olmayan böyük qürur hissini yaşatdı. Əsrə bərabər 20 ilin zirvəsi, Zəfər yolunun ən böyük dayanacağı torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsi oldu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qarabağ zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Bu zəfər Azərbaycanı qalib ölkəyə, xalqımızı qalib xalqa çevirdi. İlham Əliyev Azərbaycanın son iki əsrdə düçar olduğu və girdabından çıxa bilmədiyi ən böyük və ən ağrılı milli problemini həll etdi.

Ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı şanlı qələbənin əsasında əsgər və zabitlərimizin qəhrəmanlığı və vətənpərvərliyi dayanır. Dövlət başçısı bunu dəfələrlə vurğulayıb və çıxışlarının birində belə deyib: Vətən müharibəsində şanlı qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanılıb. Şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sentyabrın 27-si Prezidentin sərəncamı ilə şəhidlərimizin xatirəsinin Anım günü elan olunub. Həmin gün xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini ehtiramla yad edir.

Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla orden, medal və fəxri adlarla təltif olunub.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Dövlət başçısı Vətən müharibəsinin başa çatması ilə bağlı xalqa müraciətində bu barədə deyib: "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq".

Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramını belə ifadə edib: "Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".

Qələbədən sonrakı dövrdə Böyük qayıdışa dair həyata keçirilən genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. Bütün bu müddət ərzində dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad olunmuş ərazilərə səfərləri Böyük qayıdışın təminatıdır.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş rayonlarına səfərləri əyani şəkildə nümayiş etdirir ki, Böyük qayıdış dövlətin ən mühüm prioritetidir və tam şəkildə reallaşdırılacaqdır. Bunlar sadəcə səfər deyil, yeni-yeni yaşayış məskənlərinin, sosial və iqtisadi obyektlərin əsasının qoyulması, nəqliyyat strukturunun qurulması və sairə deməkdir. Şəhər günlərinin qeyd edilməsi isə bugünkü və gələcək nəsillərə unudulmaz qələbə töhfəsidir.

Bu proqram işğaldan azad edilmiş ərazilərin bərpa və inkişafı, məcburi köçkünlərin doğma torpaqlarına qayıtması və digər məsələləri özündə əks etdirir. Bu, eyni zamanda Azərbaycanın hüdudları ilə məhdudlaşmayaraq, qlobal əhəmiyyətə malikdir. Böyük qayıdış epopeyası Azərbaycan dövlətçiliyinin yeni qələbəsidir. Bu proqram ilə dünya şahid oldu ki, Azərbaycan dövləti qurucu, yaradıcı dövlətdir, öz suveren ərazilərinin tam sahibi, vaxtilə bu ərazilərdən məcburi köçkünə çevrilmiş insanların hamisidir.

Azərbaycan tarixinin yeni epoxasının simvolu olan Prezident İlham Əliyevin obrazı çox mühüm bir xüsusiyyətə də malikdir. Təqdim olunan epoxanın dövrləşdirilməsindən aydın olur ki, onun əldə etdiyi uğurların heç biri demək olar ki, tale işi, yaxud bir və ya iki amilin uğurlu birləşməsindən əmələ gələn xoşbəxt sonluq deyil, gərgin dövlətçilik fəaliyyətinin, siyasi və hərbi arenada aparılan mübarizənin nəticəsidir.

Dövlət başçısının fəaliyyəti nəticəsində meydana gəlmiş yeni tarixi şəraitin ümumi dövrləşdirilməsinin həm xronologiyası, həm də məzmununun zənginləşəcəyi təbiidir. Onun əsas yekunu isə Azərbaycanın şərtləri və mənafeyini nəzərə alan sülh müqaviləsinin imzalanması olacaqdır. O zaman Prezident İlham Əliyevin memarı olduğu Böyük qayıdış proqramı əsas istiqamətə çevriləcəkdir.

Azərbaycan tarixinin 2003-cü ildən başlayan İlham Əliyev epoxasının illəri artdıqca onun tarixi salnaməsi daha da zənginləşir, səhifələrinə yeni-yeni zəfərlər yazılır. Azərbaycan daha da inkişaf edir, qüdrətlənir.

Prezident, Ali Baş Komandan, qalib sərkərdə, mahir siyasətçi kimi İlham Əliyevin şah əsəri azad Qarabağ, suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycandır. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu Öndərin vəsiyyətinə əməl edən oğul İlham Əliyev dünyanın ən xoşbəxt qalib varisidir. O, Qarabağ Zəfəri ilə yalnız Heydər Əliyevin vəsiyyətinə əməl etməyib, həm də Cümhuriyyət dövründən bugünədək Azərbaycanda heç bir dövlət xadiminin yerinə yetirə bilmədiyi vəzifənin öhdəsindən gəlib. İlham Əliyev xalqın əyilmiş qəddini dikəldib, zədələnmiş qürurunu, ləyaqətini bərpa edib.

İyirmi il əvvəl üçrəngli bayrağın qarşısında diz çökən, onu öpüb gözünün üstünə qoyan gənc milli lider dediyi sözün arxasında durdu, vədinə əməl etdi. Bu tarixi missiyanın öhdəsindən xalqı və ordunu vəhdət halında ətrafında cəm edərək, "dəmir yumruğ"unu başının üstünə qaldıraraq, özünün dediyi kimi, iradənin, cəsarətin və özünə inamın hesabına gəldi.

*Qarabağ Qələbəsi Azərbaycan övladlarının vətənsevərlik, qorxmazlıq obrazını yaratdı. Azərbaycan əsgərinin mətanətini, cəsurluğunu əfsanələşdirdi. Azərbaycan Ordusunun nüfuzunu bütün dünyada möhkəmlətdi. Bu Zəfər bizim üçün hər zaman müqəddəs olacaq! Zəfərimiz milli yaddaşımızda və tarixin səhifələrində əbədi qalacaq!*

*Azərbaycanın Zəfər yolu davam edir. Bu yolun baş memarı İlham Əliyevin hələ neçə-neçə zəfərlərə imza atacağına əminik.*

**Asif ƏSGƏROV,**
***Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 394 QƏRAR Bakı şəhəri, 2 noyabr 2023-cü il

## "Tədavüldən çıxarılmış pul nişanlarının (saxta pul nişanları istisna olmaqla) məhv edilməsi Qaydaları"nın təsdiqi və "Tədavüldən çıxarılmış kağız və metal pul nişanlarının məhv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 iyul tarixli 333-25 nömrəli Qərarının ləğv edilməsi barədə

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 41.1-ci maddəsinə, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanının 2.4-cü bəndinə uyğun olaraq və "Tədavüldən çıxarılmış pul nişanlarının məhv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 iyul tarixli 2293 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 avqust tarixli 4025 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Tədavüldən çıxarılmış pul nişanlarının (saxta pul nişanları istisna olmaqla) məhv edilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Tədavüldən çıxarılmış kağız və metal pul nişanlarının məhv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 iyul tarixli 333-25 nömrəli Qərarı ləğv edilsin.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Preziden-tinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 402 QƏRAR Bakı şəhəri, 3 noyabr 2023-cü il

## "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 sentyabr tarixli 122 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə"nin 15-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollegiya üzvlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 3 sentyabr tarixli 122 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 740; 2006, № 7, maddə 640, № 9, maddə 815; 2011, № 1, maddə 61; 2012, № 5, maddə 468; 2014, № 9, maddə 1129; 2015, № 12, maddə 1589; 2018, № 7 (II kitab), maddə 1643; 2019, № 6, maddə 1154; 2020, № 9, maddə 1218) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissədə "9" rəqəmi "11" rəqəmləri ilə əvəz edilsin.

2. 2-ci hissənin "Kollegiyanın üzvləri:" bölməsinə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hüquqi təminat idarəsinin rəisi" sözlərindən sonra "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 403 QƏRAR Bakı şəhəri, 4 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 fevral tarixli 32 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 aprel tarixli 2124 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 fevral tarixli 32 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 111; 2002, № 8, maddə 545; 2005, № 11, maddə 1076; 2006, № 5, maddə 472; 2009, № 10, maddə 846; 2022, № 3, maddə 289) ilə təsdiq edilmiş "Dövlət əmlakının özəlləşdirilməsində iştirak etmək üçün təqdim edilməli sənədlərin siyahısı və qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Bu Qaydaların 2.3-cü bəndində nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar sifarişçidən tələb edilmir. Bu sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi sifarişçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya sifarişçi tərəfindən təmin edilir.".

2. 2.6-cı bəndin birinci cümləsinə "təqdim edilməkdə" sözlərindən sonra "(bu Qaydaların 2.3-1-ci bəndinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 401 QƏRAR Bakı şəhəri, 3 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121; 2006, № 1, maddə 59; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 1, maddə 49; 2012, № 2, maddə 183; 2013, № 6, maddə 738; 2014, № 1, maddə 69, № 2, maddə 201, № 7, maddə 925; 2016, № 4, maddə 772, № 5, maddə 955; 2017, № 3, maddə 478; 2018, № 3, maddə 624, № 8, maddə 1817, № 10, maddə 2174; 2020, № 6, maddə 788; 2021, № 3, maddə 301, № 9, maddə 1084, № 11, maddələr 1256, 1271; 2022, № 4, maddələr 402, 403, № 12, maddə 1533; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 285 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənd üzrə:

1.1.1. doqquzuncu abzas aşağıdakı redaksiyada verilsin:

"sifarişçi - elektrik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinə və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinə mülkiyyət və digər əşya hüquqları əsasında sahiblik edən şəxslər;";

1.1.2. on altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on yeddinci abzas əlavə edilsin:

"qoşulma aktı - tikinti obyektinin elektrik şəbəkəsinə fiziki qoşulmasını təsdiq edən sənəd.".

1.2. 1.3-cü bəndin üçüncü abzası ləğv edilsin.

1.3. 1.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"1.6. Dövlət elektroenergetika müəssisəsinin, enerjitəchizatı müəssisələrinin, müstəqil enerji istehsalçılarının, istehlakçılarının tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 399 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"na uyğun olaraq həyata keçirilir.".

1.4. Aşağıdakı məzmunda 1.8-ci bənd əlavə edilsin:

"1.8. Müstəqil enerji istehsalçısının bərpa olunan enerji mənbələrinin ərazisində tikinti obyektlərinin şəbəkəyə qoşulmasına dair texniki şərtlər müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi arasında bağlanılmış şəbəkəyə qoşulma müqaviləsi ilə müəyyən edilir və bu zaman şəbəkəyə qoşulma həmin müqavilənin tələblərinə uyğun həyata keçirilir.".

1.5. 2-ci hissə və 3.1-ci bənd ləğv edilsin.

1.6. 3.2-ci bəndin birinci cümləsində "bütün yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerji təchizatı sxemini dəyişən" sözləri "tikinti obyektlərinin" sözləri ilə əvəz edilsin.

1.7. 3.2-1.2-ci yarımbənddən "Enerji Məsələləri Tənzimləmə Agentliyi və" sözləri çıxarılsın.

1.8. 5.1-ci bənddə "elektrik enerjisinin alqı-satqı müqaviləsinə əlavə edilən elektrik şəbəkələrinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti aktında qeyd olunur (8 nömrəli əlavə)" sözləri "qoşulma aktında qeyd olunur" sözləri ilə əvəz edilsin.

1.9. 9.13-cü bənddə "dayandıra bilər" sözləri "dayandırır" sözü ilə əvəz edilsin.

1.10. Bu Qaydalara 1 nömrəli əlavə - "Enerjitəchizatı müəssisəsi ilə istehsal, dəmir yolu nəqliyyatı, elektrikləşdirilmiş şəhər nəqliyyatı müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi"nin 7-ci hissəsində, 2 nömrəli əlavə - "Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi"nin 6-cı hissəsində, 3 nömrəli əlavə - "Enerjitəchizatı müəssisəsi ilə büdcədən maliyyələşdirilən təşkilat (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi"nin 6-cı hissəsində və 5 nömrəli əlavə - "Müstəqil enerji istehsalçısı ilə dövlət elektro-energetika müəssisəsi (enerjitəchizatı müəssisəsi) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi"nin 4-cü hissəsində "bu müqaviləyə əlavə olunmuş aktla" sözləri "qoşulma aktı ilə" sözləri ilə əvəz edilsin.

1.11. Bu Qaydalara 8 nömrəli əlavə - "Enerjitəchizatı müəssisəsi ilə abonent arasında elektrik şəbəkəsinin balans mənsubiyyəti sərhədi və tərəflərin istismar məsuliyyəti haqqında (elektrik enerjisinin alqı-satqı müqaviləsinə əlavə) Akt" ləğv edilsin.

2. Bu Qərar "Elektroenergetika haqqında" Azərbaycan Respub-likasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 404 QƏRAR Bakı şəhəri, 4 noyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı ilə təsdiq edilmiş "Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası"nda dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 18 iyul tarixli 263 nömrəli, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 9 avqust tarixli 274 nömrəli, "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" 2006-cı il 25 may tarixli 413 nömrəli, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 3 iyul tarixli 606 nömrəli, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 147 nömrəli, "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2011-ci il 15 fevral tarixli 382 nömrəli, "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" 2011-ci il 20 aprel tarixli 414 nömrəli və "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 9 aprel tarixli 606 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2227 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073; 2010, № 4, maddə 354; 2014, № 9, maddə 1137; 2016, № 9, maddə 1585; 2017, № 3, maddə 495, № 4, maddə 643; 2020, № 10, maddə 1294; 2021, № 9, maddə 1087; 2022, № 8, maddə 1023; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 sentyabr tarixli 302 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı Qaydası"nın 4.6-cı bəndində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# "Sualtı hücum xüsusi təyinatlı kursu"nun buraxılış mərasimi keçirilib









**Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində "Sualtı hücum xüsusi təyinatlı kursu"nun növbəti buraxılış mərasimi keçirilib. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.**

Bildirilib ki, əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılan abidə önünə gül dəstələri düzülərək hörmət və ehtiram nümayiş etdirilib.

Buraxılış mərasimində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anılıb. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov çıxış edərək kursantları təbrik edib və onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Qardaş ölkədən olan peşəkar təlimatçıların da cəlb edildiyi kursların yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə türkiyəli zabitlərə və bütün heyətə təşəkkürünü bildirib.

Kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulduqdan sonra kursantlara sertifikatlar təqdim olunub.

Kursda fərqlənən bir qrup hərbi qulluqçu və təlimatçı fəxri fərman, döş nişanları və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Buraxılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra dəniz xüsusi təyinatlılarının taktiki-xüsusi məşğələsi, eləcə də sualtı hücum və sualtı müdafiə bölmələrinin dalğıclarının nümunəvi çıxışları nümayiş etdirilib.

# Bakıda "Biz birlikdə güclüyük" mövzusunda konfrans təşkil edilib

**Noyabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (Dövlət Komitəsi) tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) təşkilatçılığı ilə "Biz birlikdə güclüyük" mövzusunda konfrans keçirilib.**

Tədbirin əvvəlində xalqımızın milli-mənəvi dəyərlərinin, birlik və həmrəyliyinin, Azərbaycanın tolerant və multikultural modelinin təbliği, o cümlədən birgəyaşayış formulunun daha geniş kütləyə çatdırılması məqsədilə MDTF-nin sifarişi ilə hazırlanan "Müasir çağırışlar: birgəyaşayış nümunəsi" adlı qısametrajlı sənədli film nümayiş olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı açılış nitqi ilə çıxış edərək deyib: "Biz birlikdə güclüyük. Birlikdə olduğumuza görə qarşımızda duran bütün məsələləri həll edə bilirik. Bu gün tolerantlığın Azərbaycan nümunəsi dünyada ən mükəmməl modellərdən biri kimi qəbul olunur".

O bildirib ki, bu gün dünyada həm tolerantlıq, həm də multikultural dəyərlərə sadiq olmaq olduqca vacibdir. "Hamımız görürük ki, hazırkı dövrdə dünyamız təhlükədədir. İnsanların həyatını itirməsi, baş verən münaqişələr bunu deməyə əsas verir. Təəssüf ki, belə hallar davam etməkdədir. Əlbəttə, bu münaqişələr təkcə dini deyil, müxtəlif aspektlərdə baş verir. Azərbaycan isə özünün tarixi keçmişi və ənənələri ilə dünyaya nümunə olacaq öləkələr sırasındadır. Biz böyük tarixi bir yol keçmişik. Ərazimizdə müxtəlif dinlərin nümayəndələri yaşamaqdadır. Ölkəmizin coğrafi mövqeyi, əhalisinin etnik tərkibi qədim dövrdən burada fərqli dinlərin mövcudluğuna şərait yaradıb. Bütpərəstlik, zərdüştlük, yəhudilik, xristianlıq, islam və digər dini inanclar Azərbaycan ərazisində yayılıb", - deyə komitə sədri vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxışı zamanı tolerantlığın Azərbaycanda həyat tərzi olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra bu məsələyə xüsusi diqqət ayrılıb. "Tolerantlıq Günü-nün Zəfər Günü ilə eyni vaxta düşməsi təsadüfi haldır. Əslində, bunun özündə də böyük bir mahiyyət var ki, İkinci Qarabağ müharibəsindəki zəfərimizin arxasında duran ideya birlik, qardaşlıq idi. Çünki bu torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə dinindən, dilindən, mədəniyyətindən asılı olmayaraq, hər kəs öz canını və sağlamlığını qurban verib", - deyə icraçı direktor bildirib.

Digər çıxış edənlər - Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası Şurasının katibi Elnur Əfəndiyev, Azərbaycan Katolik kilsəsinin nümayəndəsi Yozef Marek, Azərbaycan Bəhailəri Məркəzinin katibi Ramazan Əsgərli, "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Fərqli dinlərin daşıyıcılarına münasibətdə tolerantlıq və birgəyaşayış ənənələrinin əhəmiyyətinə diqqət çəkilən konfrans müzakirələrlə yekunlaşıb.




# Türk əsrinin Azərbaycan zamanı

## İlham Əliyevin Türk Dövlətləri Təşkilatının vahid güc mərkəzinə çevrilməsi üçün irəli sürdüyü təşəbbüslər liderlərin tam dəstəyini aldı

**Türkdilli ölkələr arasında strateji tərəfdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyması Türk Dövlətləri Təşkilatının (TDT) getdikcə vahid güc mərkəzinə çevrildiyini söyləməyə əsas verir.**

Son illərdə türkdilli dövlətlərin başçıları arasında təmasların yeni formatda davam etdiyinin şahidi oluruq. Təmasların mütəmadi xarakter almasında isə Azərbaycan Prezidentinin fəaliyyəti danılmazdır. İlham Əliyev türkdilli dövlətlərlə əlaqələrin inkişaf etdirilməsini mühüm prioritet məsələlərdən biri hesab edir və qardaş ölkələrlə iqtisadi, siyasi, humanitar, həmçinin digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü siyasət yürüdür. Bütün bunların nəticəsidir ki, son illərdə türk dövlətləri arasında əlaqələr hər sahədə intensiv xarakter alıb və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdirilir. Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

Noyabrın 3-də təşkilatın Astanada keçirilən "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü həm əvvəlki dövrdə atılan addımları dəyərləndirmək, həm də bu addımlara əsasən gələcək prioritetləri müəyyənləşdirmək baxımından əhəmiyyətli oldu.

Görüşdə liderlər arasında aparilan müzakirələrə, təşkilatın artan imkanları fonunda səslənən fikirlərə əsasən deyə bilərik ki, dünyada yeni qurulan siyasi nizamda türk coğrafiyası TDT çətiri altında yeni güc mərkəzlərindən birinə çevrilir. Əsas hədəf bu birliyi daha da gücləndirmək, istisadi əlaqələri getdikcə şaxələndirməkdir.

### Naxçıvandan başlayan uğurlu yol

Azərbaycan həmişə türk dünyasının mütəşəkkilliyi üçün mühüm addımlar atıb, bu istiqamətdə yüksək töhfələr verib. Bütün dövrlərdə türk dövlətlərinin birliyi amallarına sadiq qalan Azərbaycanın bu istiqamətdə təşəbbüslərindən biri də Türk Şurasının yaradılması ilə bağlı sazişin məhz ölkəmizdə imzalanmasıdır.

14 il öncə, 2009-cu ildə Naxçıvanda keçirilən toplantıda imzalanan sazişə əsasən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) yaradılıb. Həmin zaman sazişi dörd ölkənin rəhbərləri - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri imzalayıblar. Lakin illər ötdükcə, xüsusilə son dövrlər Azərbaycanın və Türkiyənin liderliyi təşkilata üzv ölkələr arasında əməkdaşlıq və əlaqələri genişləndirib. 2021-ci ilin noyabrında şura Türk Dövlətləri Təşkilatına (TDT) çevrilib və onun üzvlərinin sayı artıb. Hazırda təşkilatın 5 əsas - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və 2 müşahidəçi üzvü - Macarıstan və Türkmənistan var. Birliyin üzvləri bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birini dəstəkləyir, eyni zamanda iqtisadi, siyasi əlaqələri durmadan genişləndirir, neft-qaz resurslarını Avropaya nəql edirlər.

Bu gün türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir. TDT-yə üzv ölkələrin coğrafi mövqeyinə diqqət yetirsək, görərik ki, onlar şərqdən qərbə tam bir nəqliyyat marşrutu - Orta dəhliz təşkil edir. Heç şübhəsiz, Azərbaycan bu marşrutda aparıcı rola malikdir. Çünki şərqlə qərbin qovuşuğunda yerləşən ölkəmiz mühüm tranzit mövqeyə sahibdir.

Ümumilikdə 4,8 milyon kvadratkilometr əraziyə, 1,4 trilyon dollar dəyərində ümumi daxili məhsula və 855 milyard dollardan çox ticarət dövriyyəsinə malik türk dövlətləri böyük iqtisadi potensiala, enerji resurslarına, geniş nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdirlər. Türk dövlətləri dünyanın ümumi ticarət dövriyyəsinin 2,4 faizini və qlobal ümumi daxili məhsulun 1,6 faizini təşkil edirlər.

Dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta dəhlizin əhəmiyyəti artmaqdadır. Azərbaycan Prezidentinin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə müasir nəqliyyat-logistika infrastrukturu yaradılıb. Bu gün Orta dəhlizlə yükdaşımaların həcmi nəzərəçarpacaq dərəcədə artmaqdadır. Təsadüfi deyil ki, 2023-cü ilin yanvar-avqust aylarında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların dinamikası ötən ilin müvafiq dövrü ilə müqayisədə 85,3 faiz artaraq 1,7 milyon tondan çox olub. Bu artım Azərbaycanın da həmin ölkələrlə iqtisadi əlaqələrinə öz təsirini göstərib.

### İlham Əliyevə böyük ehtiram

Bu Zirvə görüşündə ilk diqqətçəkən məqam liderlərin Azərbaycan Prezidentinin həyata keçirdiyi müstəqil siyasətə, təşkilatın daha da güclənməsi istiqamətində irəli sürdüyü təşəbbüslərə verdikləri yüksək dəyər oldu.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ev sahibi kimi ilk çıxışında İlham Əliyevi və Azərbaycan xalqını ölkəmizin ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edərək dedi: "Hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan xalqını dövlətçiliyin möhkəmləndirilməsi münasibətilə təbrik edirəm. Ölkəniz ərazi bütövlüyünü bərpa edib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu tarixi addım Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq atılıb".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün türk dövlətlərində qürur doğurduğunu və bunun sülh üçün geniş imkanlar açdığını vurğulayaraq dedi ki, can Azərbaycan Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoyub: "Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyuruq. Bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdıq. Açılan fürsət pəncərəsinin dəyərləndirilməsi ən böyük arzumuzdur. Ermənistanın Azərbaycan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir. Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək kommunikasiya xəttinin həyata keçirilməsi də böyük önəm daşıyır. Bu xəttin açılması bütün bölgə ölkələrinin rifahına ciddi töhfə verməklə yanaşı, Türkiyəni də ata yurdumuz olan Orta Asiya ilə birləşdirəcək. Bu prosesin uğurla başa çatdırılması üçün türk dünyası olaraq Azərbaycana dəstəyimizi davam etdirməliyik".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Zirvə görüşündəki çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan söz açdı: "Sizin də yaxşı bildiyiniz kimi, dost Azərbaycan xalqı türk dünyasında layiqli yer tutur, böyük hörmətə və nüfuza malikdir. Azərbaycan xalqı son illər əziz dostum İlham Heydər oğlunun rəhbərliyi ilə möhtəşəm uğurlar əldə edir".

Şavkat Mirziyoyev həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı tədbirlərdən danışaraq bildirdi ki, tarixi ədalət zəfər çaldı. Bu gün Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın quruculuq ərazisinə çevrilməsi istiqamətində mühüm nəticələr əldə olunur: "Avqust ayında Şuşa və Füzuli şəhərlərində olarkən irimiqyaslı quruculuq işlərinin, müasir infrastrukturun yaradılmasının, dağıdılmış mədəni irs obyektlərinin bərpasının şəxsən şahidi oldum. Azərbaycan xalqını böyük Zəfər - ölkənin ərazi bütövlüyünün tam bərpası münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm".

Qırğız Prezidenti Sadır Japarov Azərbaycanın suverenliyinin bərpası istiqamətində hər zaman mühüm addımlar atdığını qeyd edərək dedi ki, Qırğızıstan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir.

Azərbaycanın uğurlarını görüş iştirakçılarının diqqətinə bir daha çatdıran Macarıstanın Baş naziri Viktor Orban isə regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərdə və Qarabağın bərpası işlərində İlham Əliyevə uğurlar arzuladı, qazanılan nailiyyətlərə görə onu təbrik etdi.

Bütün bunlar, əlbəttə ki, Azərbaycana, onun lideri İlham Əliyevə verilən yüksək dəyərin bariz təcəssümüdür.

### Azərbaycan türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə yatırıb

Zirvə görüşündə çıxış edən İlham Əliyev isə bir daha bəyan etdi ki, türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlıq təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilat beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir.

Azərbaycanın türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyduğunu da vurğulayan İlham Əliyev dedi ki, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Prezident diqqətə çatdırdı ki, artıq birgə sərmayə fondlarının yaradılması prosesi də başlayıb. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradılıb. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artıb. Münasibətlərin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib. Ölkəmiz "Şərq-Qərb" nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə dəyərli töhfəsini verir.

İlham Əliyev eyni zamanda Şanlı Zəfərimizin yaratdığı reallıqlardan, hazırda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən böyük tikinti-quruculuq prosesindən də bəhs edərək bu prosesdə öz dəstəyini əsirgəməyən, həmçinin Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilməsində verdikləri dəstəyə görə qardaş ölkələrin liderlərinə minnətdarlığını bildirdi.

### Yeni transmilli layihələr TDT-nin gücünü daha da artıracaq

Zirvə görüşündə həmçinin türk dövlətlərinin nəqliyyat-tranzit imkanlarının, enerji ixraclarının daha da şaxələndirilməsi istiqamətində də müzakirələr aparıldı.

Türk dövlətləri arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlərin reallaşdırıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan qeyd etdi ki, nəhəng enerji və nəqliyyat infrastrukturu layihələri türk dövlətləri arasında daim əsas və mühüm əməkdaşlıq sahəsi olub. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərləri və Trans-Anadolu boru kəməri bunun konkret nümunələridir. Xəzərin təbii qazının Türkiyəyə və Avropaya nəqli həm türk dövlətlərinin rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək: "Ölkələrimiz arasındakı nəqliyyat şəbəkəsini inkişaf etdirmək hədəfini də xüsusi vurğulamalıyıq. Bu düşüncə ilə Xəzərdən keçən Orta dəhlizin rolunun artırılması istiqamətində səylərimizi davam etdiririk".

Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov türk dövlətləri arasında reallaşdırılan layihələrdən danışaraq dedi ki, Qırğızıstan, Özbəkistan, Türkmənistan marşrutu boyunca Xəzər dənizinədək uzanacaq, sonra Azərbaycana və Türkiyəyə qədər genişləndiriləcək nəqliyyat dəhlizinin yaradılması üzərində iş gedir. Hazırda Türkmənistan qonşu və qardaş ölkələr olan Özbəkistana və Azərbaycana təbii qaz ixrac edir. Eyni zamanda Türkmənistan qazının Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə və gələcəkdə dünya bazarına ixrac edilməsi imkanları da var.

Bütün bunlar Azərbaycan üçün ikiqat əhəmiyyətlidir. Çünki güclənən məhz türk birliyidir. Bu birlik və yüksək əlaqələrdə isə Azərbaycan mərkəzi rol alıb və proseslərdə təşəbbüskar şəxsən İlham Əliyevdir. Azərbaycan Prezidenti mühüm təşəbbüsləri ilə TDT-nin vahid güc mərkəzinə çevrilməsi prosesinə müsbət impuls verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Birliyə, tərəqqiyə, əməkdaşlığa doğru inamlı addımlarla

## Türk Dövlətləri Təşkilatının Zirvə görüşü əlaqələrin daha da möhkəmləndirilməsi niyyətinin növbəti nümunəsidir

**Noyabrın 3-də Qazaxıstanın paytaxtı Astanada keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü türk birliyini, bu birliyin məram və məqsədlərini bir daha ortaya qoydu.**



Zirvə görüşü türk dünyasında əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndirilməsi niyyətinin növbəti nümunəsi olmaqla yanaşı, türk birliyinin dünyada sülhə, əmin-amanlığa, təhlükəsizliyə nail olmaq istiqamətində arzu və istəklərinin bir daha bəyan edildiyi sammit idi.

Görüşdə çıxış edən Prezident İlham Əliyev türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğuladı. Dövlət başçısı qeyd etdi ki, etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir: "2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir".

Ölkə rəhbəri çıxışında böyük türk dünyasının bir hissəsi olduğumuzu bildirərək, dostluğumuzun, qardaşlığımızın əbədi olacağına əminliyini ifadə etdi.

Zirvə görüşündə çıxış edən digər türk dövlətləri rəhbərləri Azərbaycanı ərazi bütövlüyünün təmin olunması münasibətilə təbrik edərək, regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərdə Prezident İlham Əliyevə uğurlar arzuladılar.

Sammitin sonunda Astana aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalandı.

Milli Məclisin deputatı Aydın Mirzəzadə TDT-nin Zirvə görüşü ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, təşkilatın 10-cu yubiley sammiti bir çox faktorla diqqəti çəkib. Ötən illər ərzində türk dövlətlərinin həmişə birlikdə olmaq, mövqelərini yaxınlaşdırmaq, dünyada sülhə və tərəqqiyə nail olmaq istəkləri bir daha ortaya qoyuldu: "Təsadüfi deyil ki, sammitin şüarı "Türk Çağırışı", "Türk Əsri" idi. Türk faktoru bu gün dünyada vacib məsələlərdən biridir. Türk dövlətlərində əmin-amanlıq, mehriban qonşuluq, istənilən məsələnin gərginliyə çatdırılmadan beynəlxalq hüquq normaları əsasında həll edilməsi təşəbbüsü və praktikası var".

A.Mirzəzadə vurğulayıb ki, bu sammitdə türk dövlətləri birgə hərəkət etmək, imkanlarını birləşdirmək, bütün sahələrdə əməkdaşlıq etmək istəklərini bir daha ortaya qoydular. Bunu təsdiqləyəcək kifayət qədər nümunələr var. Təkcə Azərbaycan bu il türk dövlətləri ilə xarici ticarət dövriyyəsini 40 faizə qədər artırıb. Ölkəmiz türk dövlətlərinə 20 milyard ABŞ dollarına qədər investisiya qoyub və bu rəqəm artmaqda davam edir.

Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışında türk dövlətlərinin ümumi tarixinə, dil, din və ənənələr faktoruna toxunduğunu xatırladan deputat bildirib ki, Azərbaycanın türk dövlətləri ilə əməkdaşlığı hər zaman genişləndirmək istəyi özünü göstərir: "Dövlət başçımız türk həmkarlarına Azərbaycanda gedən proseslərdən, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün apardığı mübarizədən də danışdı. Bütün bu məlumatlar digər türk liderləri tərəfindən çox maraqla, razılıqla qarşılandı. Türk Dövlətləri Təşkilatının hər sammitini tərəqqiyə, əməkdaşlığa, birliyə doğru daha böyük və inamlı addım hesab etmək olar".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Türk dövlətləri beynəlxalq siyasətdə də ortaq mövqeyə sahibdirlər

*"Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu Zirvə toplantısı türk dünyası üçün mühüm əhəmiyyətə malikdir. Bu sammit əvvəlki illərdə həyata keçirilən vacib işlərlə yanaşı, gələcək prioritetləri müəyyənləşdirmək baxımından da xüsusi önəm daşıyır. Zirvə toplantısında bütün türk dövlətlərinin liderlərinin bir araya gəlməsi həm də onlar arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafından xəbər verir. Bunda Azərbaycan və Türkiyənin böyük rolu var. Çünki iki qardaş ölkənin bütün sferalarda inkişafda olan münasibətləri digər türk dövlətlərinin də təşkilata cəlb edilməsinə imkan yaradıb".*



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat bildirib ki, Türk Dövlətləri Təşkilatının 10-cu Zirvə toplantısı türk dünyası tarixinin əlamətdar hadisələrindəndir: "Zirvə toplantısında TDT-yə üzv olan, eləcə də müşahidəçi qismində iştirak edən bəzi ölkələrin prezidentləri və ya baş nazirlərinin iştirakı mühüm əhəmiyyət kəsb edir. Bu sammitin şüarının da "Türk Əsiri" adlandırılması təsadüfi deyil. Bu, həqiqətən də türk xalqlarının həyatında yeni bir mərhələnin başlayacağına işarədir".

Deputat Prezident İlham Əliyevin sammitdəki çıxışına diqqət çəkərək bildirib ki, dövlət başçısı Zirvə toplantısında bir daha türk dövlətlərinin birliyinin və əməkdaşlığının önəmini vurğulayıb və Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlığına xüsusi diqqət ayırdığını qeyd edib: "Dövlət başçısı həmçinin yaxın keçmişə qiyabi ekskursiya edərək Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, 30 il ərzində üzləşdiyimiz işğal problemi, eləcə də 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbəmiz barədə söz açıb. Prezident İlham Əliyevin dediyi kimi, bu gün baş verən qlobal təhlükələr fonunda türk dövlətlərinin daha sıx birləşməsi, daha sürətli və çoxtərəfli inkişaf etməsi vacibdir".

Məlahət İbrahimqızının sözlərinə görə, bu sammit eyni zamanda türk dövlətlərinin artıq beynəlxalq siyasətdə də ortaq mövqe sərgilədiklərindən xəbər verir. Dəyişkən geosiyasi mühitdə bu həmrəyliyin nümayiş etdirilməsi mütləqdir. Deputat hesab edir ki, türk xalqları məhz bu təşkilatın atdığı lazımi addımlar nəticəsində dünyanın güc mərkəzlərindən birinə çevriləcək.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan Türk Dövlətləri Təşkilatında aparıcı mövqeyə malikdir

*Xəbər verildiyi kimi, Qazaxıstanın Astana şəhərində "Türk Əsri" çağırışı altında keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu yubiley görüşündən öncə yüksəkvəzifəli rəsmilər bir araya gələrək bir sıra iqtisadi və siyasi mövzularda, o cümlədən ticarət, nəqliyyat, gömrük və digər sahələr üzrə sənədlərin hazırlanmasına dair razılıqlar əldə etmişlər.*

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Ayhan Satıcı mətbuata açıqlamasında bildirmişdir ki, Zirvə görüşü çərçivəsində dövlət başçılarının ikitərəfli görüşlərinin keçirilməsi türk dövlətləri arasında əlaqələrin gücləndiyinin bariz nümunəsidir.

Qeyd edək ki, 10-cu yubiley Zirvə görüşündə TDT-yə sədrlik Özbəkistan Respublikasından Qazaxıstan Respublikasına ötürüldü. Həmçinin onu da xatırladaq ki, Zirvə görüşünün nəticəsi olaraq Türk İnvestisiya Fondu fəaliyyətə başlayacaq. Fondun nizamnamə kapitalı 500 milyon dollardır. İnvestisiya qoyuluşlarına nəzər yetirəndə aydın olur ki, Azərbaycan birbaşa xarici investisiya qoyuluşunda türk dövlətləri arasında drayver rolu oynamaqdadır. Prezident İlham Əliyev Zirvə görüşündə vurğuladı ki, Azərbaycan indiyə qədər türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoymuşdur. Həmçinin Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun yaradılması da xüsusi qeyd edilməlidir.

Ümumilikdə TDT çərçivəsində mövcud potensialdan istifadənin arzuolunan səviyyəyə çatması üçün "Türk Dünyası Vizyonu-2040" və "TDT-nin 2022-2026-cı illər üçün Strategiyası" sənədləri qəbul edilmişdir. Müntəzəm olaraq keçirilən görüşlərin əsas məqsədi bu sənədlər çərçivəsində qarşıya qoyulan hədəflərə səmərəli şəkildə çatmaqdır. Məlumat üçün bildirək ki, TDT-yə üzv və müşahidəçi ölkələr çərçivəsində ticarət dövriyyəsi 2022-ci ildə 57 milyard dollardan çox olmuşdur. Halbuki bu ölkələrin 2022-ci ildə dünya ilə ümumilikdə ticarət dövriyyəsi 1,2 trilyon dollar təşkil etmişdir.

A.Satıcı vurğulamışdır ki, mövcud potensialdan səmərəli istifadəni təmin etmək üçün son dövrlər bir sıra vacib addımlar atılmaqdadır. Ticarətin asanlaşdırılmasına dair ən mühüm sənədlərə aid "Beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında" və "Sadələşdirilmiş Gömrük dəhlizinin yaradılması haqqında" sazişləri misal göstərmək olar. Hüquqi məsuliyyət daşıyan bu sazişlər ölkələr arasında ticarət dövriyyəsinin artmasına xidmət edəcək.

Qeyd edək ki, regionda baş verən geosiyasi natarazlıqlar fonunda yeni bir reallıq yaranıb. Yeni şəraitdə türk dünyası ölkələrindən keçən və Orta dəhliz adlandırdığımız nəqliyyat marşrutunun geoiqtisadi mahiyyəti kifayət qədər artmışdır. Zirvə görüşündə dövlət başçıları da bu çağırışı türk dövlətlərinin TDT çərçivəsində fürsətə çevirmələrini strateji hədəf kimi qiymətləndirdiklərini vurğulamışlar.

"Azərbaycanın həyata keçirdiyi meqalayihələr, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi", Zəngəzur dəhlizi və bu kimi digər layihələr ətrafında yaradılan böyük quruculuq və infrastruktur işləri diqqətə layiqdir. Əlavə olaraq, Azərbaycan etibarlı tranzit ölkə kimi öz mövqeyini artıq sübut edib və Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 2023-cü ilin yanvar-sentyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə 40 faiz artıb. Azərbaycanın bilateral əlaqələrinə də nəzər yetirsək, görə bilərik ki, bir çox sahə üzrə türk dövlətləri ilə əlaqələr genişlənir. Dövlət başçısı İlham Əliyev son iki ildə Qazaxıstana üç dəfə səfər etmişdir. Zirvə görüşündə qeyd olundu ki, ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı təkcə iqtisadi, siyasi və mədəni sahələrlə məhdudlaşdırılmamalı, regionda mövcud olan geosiyasi vəziyyət nəzərə alınaraq hərbi və müdafiə sənayesi kimi sahələrdə də əlaqələr gücləndirilməlidir", - deyə Ayhan Satıcı diqqətə çatdırmışdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



# Milli hədəf

## Qarabağ və Şərqi Zəngəzurun bərpası dövlət büdcəsinin prioritetlərindən biridir

**Qarabağa və Şərqi Zəngəzura qayıdışı milli çağırış kimi xarakterizə edən Prezident İlham Əliyevin şəxsi nəzarəti altında tarixi ərazilərimizdə sürətli bərpa və quruculuq işləri aparılır. Ötən üç il müddətində də dövlət büdcəmizin prioriteti məhz bu milli hədəfə nail olunması istiqamətindədir.**

Xatırladaq ki, 2020-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə əlaqədar dövlət büdcəsindən təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramının icrası üçün 5,3 milyard manat, gələn ilin büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündəki çıxışında Prezident İlham Əliyev də diqqətə çatdırdı ki, üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı: "Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur".

### Böyük qayıdış proqramı uğurla icra olunur

Qayıdışa sürətli hazırlıq görülən Qarabağ və Şərqi Zəngəzurda müasir infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülür, "ağıllı kənd və şəhərlər" salınır. Artıq bu ərazilərdə iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan hava limanları tikilərək istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının isə tikintisi həyata keçirilir.

Tarixi yurdlarımızda həyata keçirilən bütün bu işlərə şəxsən nəzarət edən dövlət başçısı İlham Əliyev mütəmadi həmin bölgələrə səfərlər edərək yeni təməllər qoyur, açılışlar edir.

Bu il sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev söylədi ki, Böyük qayıdış proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar: "Yəni bu gün 8 şəhər və 92 kəndin baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu, bizim proqramın tərkib hissəsidir".




### Zəfərin qayıdış töhfəsi

30 il ərzində vəhşicəsinə dağıdılan, daşı daş üstündə qalmayan yurdlarımız bir-bir abadlaşdırılır, qurudulmuş bulaqları, çayları yenidən çağlayır, qırılmış meşələri pöhrələyir.

Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışa start verilməsi, minlərlə keçmiş məcburi köçkünün Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux, eləcə də Füzuli və Laçın şəhərlərinə qaytarılması isə, heç şübhəsiz, Şuşa Zəfərinin xalqımıza bəxş etdiyi misilsiz töhfədir.

İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 315 ailə (1205 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 21 ailə (94 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Ümumilikdə, bu günədək 3188 keçmiş məcburi köçkün dədə-baba yurdunda əbədi xoşbəxt həyata başlayıb.

2026-cı ilin sonunadək isə Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Tarixi yurdlarımızda aparılan mühüm bərpa-quruculuq işləri, ard-arda həyata keçirilən qayıdış prosesləri dövlətimiz tərəfindən Böyük qayıdış proqramının uğurla icra edilməsinin parlaq təzahürləridir.

Bu sevincli və qürurverici işlər Prezident İlham Əliyevin də hər zaman fərəhlə səsləndirdiyi kimi, bu torpaqların əsl sahiblərinin qayıdışının təntənəsidir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# İlham Əliyev bizə bütöv Azərbaycan bəxş etdi

**Azərbaycan adına böyük hadisələrin, qələbələrin yaşandığı möhtəşəm bir zamana sevinclə şahidlik edirik. Son 20 ildə cənab Prezident İlham Əliyevin şəxsi əzmi, müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycan bütün sahələr üzrə inkişaf edərək əhəmiyyətli nailiyyətlər qazanıb, zəngin və qüdrətli ölkəyə çevrilib.**

Dövlət başçımız İlham Əliyevin həyata keçirdiyi misilsiz missiya torpaqlarımızın işğalına son qoymuş, bütün ərazilərimizdə bayrağımızı dalğalandıraraq suverenliyimizi bərpa etmiş, son iki yüz illik tariximizin ən şanlı səhifələrinə qızıl möhür vurmuşdur.

Bütün bu qələbələr həm də 2003-cü ildə Azərbaycan xalqının taleyi ilə bağlı düzgün qərar verməsinin parlaq göstəriciləri olmuşdur. Əgər xalqımız 1993-cü ildə təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevi hakimiyyətə gətirərək xilas, qurtuluş yoluna qədəm qoymuşdusa, düz 10 il sonra Ulu Öndərin siyasi varisi İlham Əliyevi özünün dövlət başçısı seçərək rifahdan, tərəqqidən, uğurlardan keçən parlaq qələbələr zirvəsinə yüksəlmişdi.

Təbii ki, indi əbədi bərqərar olduğumuz bu zirvəyə, qürurunu yaşadığımız bu qələbələrə çatana qədər xeyli ağır sınaqlardan keçməli, bəzən öz daxilimizdəki düşmən sapı olan qüvvələrlə, bəzən də xarici güclərlə mübarizə aparmalı olduq. Amma Allahın nəzərinin üzərimizdə olması, Azərbaycana Heydər Əliyev və İlham Əliyev kimi müdrik şəxsiyyətlərin başçılıq etmələri sayəsində bütün çətinliklərdən, sınaqlardan üzüağ çıxdıq.

Tariximizin bir çox qara səhifəsinin, millətimin düçar olduğu faciələrin çoxunun şahidiyəm. 1980-ci illərin sonlarında Ulu Öndər Heydər Əliyevin erməni millətçilərinin əli ilə hakimiyyətdən qəsdən uzaqlaşdırılması məşəqqətli günlərimizin bir-birini izləməsinə səbəb oldu. 1988-ci ildə azərbaycanlılar tarixi yurdları Qərbi Azərbaycanda etnik təmizləməyə, növbəti deportasiyaya məruz qaldılar.

1990-cı illərin əvvəllərində torpaqlarımızın təcavüzkar Ermənistan tərəfindən işğalı, azərbaycanlıların kütləvi qətliama, soyqırımlarına məruz qalması, yüz minlərlə insanımızın yurdundan zorla didərgin salınaraq məcburi köçkünə çevrilməsi ilə yanaşı, yenicə müstəqilliyini qazanmış ölkəmizin daxilindəki parçalanmalar, hökm sürən siyasi hərc-mərclik, xüsusilə AXC-Müsavat cütlüyünün hakimiyyət davası, vətəndaş müharibəsinin astanasında olmağımız faktiki olaraq Azərbaycanı bir dövlət olaraq yox olmaq qarşısında qoymuşdu.

Azərbaycanın bu böhranlı çağında Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ölkəmizdə ikinci dəfə hakimiyyətə gələrək qurtuluş, xilaskarlıq missiyasını böyük müvəffəqiyyətlə yerinə yetirməyə başladı. Öncə ölkədə daxili sabitliyi təmin edən, tədricən respublikamızı hərtərəfli inkişaf mərhələsinə çıxaran Ulu Öndər hərbi sahədə mühüm islahatlara start verdi, ordu quruculuğunda əhəmiyyətli addımlar atmağa başladı.

2003-cü ildən ötən 20 il müddətində isə cənab Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin vaxtilə dövlətçiliyimizin var olması naminə uğurlu təməlini qoyduğu bütün işləri müvəffəqiyyətlə başa çatdırdı, məntiqi sonluğuna yetirdi.

Cənab İlham Əliyevin yorulmaz fəaliyyətinin, uğurlu siyasətinin nəticəsində çox qısa zamanda Azərbaycan diplomatik, iqtisadi cəhətdən güclənərək dünyanın sayılıb



seçilən ölkəsi oldu. Nəhəng enerji layihələrinin gerçəkləşdirildiyi ünvana, qlobal nəqliyyat qovşağına çevrilən respublikamız bu gün dünyada ən etibarlı tərəfdaş, güvənli ölkə kimi tanınır.

Dövlət başçısı İlham Əliyevin məqsədyönlü və yorulmaz fəaliyyətinin ən başlıca istiqaməti torpaqlarımızın işğaldan azad edilməsi yönündə idi. Buna görə idi ki, daim hərbi sahədə mühüm islahatlar aparılır, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının yaxşılaşdırılması üçün effektiv işlər həyata keçirilirdi. Təsadüfi deyildi ki, az müddət ərzində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında qabaqcıl sıralara yüksəlmişdi.

Amma bütün dünya, eləcə də mənfur düşmən ən müasir silahlarla silahlandırılmış Azərbaycan Ordusunun potensialını və nələrə qadir olduğunu real müstəvidə 2016-cı ildə Lələtəpə qələbəsi, eləcə də 2018-ci ildə Günnüt əməliyyatı zamanı görüb bilmiş oldu.

Bu parlaq qələbələr Azərbaycan xalqının illərdir qəlbində yaşatdığı yurdlarımıza qayıdış inamını dirçəltdi.

2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi üçün irəli atılan rəşadətli ordumuz "dəmir yumruğ"a dönərək cəmi 44 gün ərzində düşməni qarşısında diz çökdürdü və müqəddəs missiyasını tamamlayaraq noyabrın 8-də Azərbaycana Şuşa zəfəri yaşatdı.

Prezident İlham Əliyevin siyasi, diplomatik, eləcə də hərbi sahədə yürütdüyü mahir strategiyası, davamlı və sarsıdıcı zərbələri təcavüzkar Ermənistanı 2020-ci il noybarın 10-da kapitulyasiya aktı imzalamağa məcbur etdi. Bu həm də düşmən tərəfindən başdan-başa mina tarlasına çevrilmiş Ağdamı, olduqca çətin coğrafi relyefə malik olan Kəlbəcər və Laçını döyüşsüz almağımıza imkan yaratdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi, hərbi manevrləri və həmlələri sayəsində labüd itkilərdən də yayınmış olduq.

Vətən müharibəsinin getdiyi həmin 44 gün ərzində qazanılan qələbələrin, işğaldan azad edilən kənd, qəsəbə və şəhərlərimizin xoş xəbərlərini Müzəffər Ali Baş Komandan İlham Əliyevdən almağımız isə xalqımız üçün böyük fərəh oldu.

Prezident İlham Əliyev Zəfərdən ötən üç ili - 2020-2023-cü illəri də, Azərbaycan üçün xeyli qələbələrlə zəngin zaman salnaməsinə çevirdi.

44 günlük müharibədən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda geniş bərpa-quruculuq işlərinə start verən dövlət başçımız tarixi ərazilərimizdə öz əlləri ilə qədim kəndlərimizin, qəsəbələrimizin, şəhərlərimizin təməllərini yenidən qoydu. Birbaşa Prezident İlham Əliyevin şəxsi nəzarəti altında bu ərazilərdə aparılan sürətli quruculuq-bərpa işləri Böyük qayıdış prqramının da uğurla həyata keçirilməsinə şərait yaradıb.

Zəfərdən iki il sonra - 2022-ci il iyulun 19-da Zəngilan rayonunun Ağalı kəndinin sakinlərinin timsalında Azərbaycan xalqı illərlə yurd həsrəti çəkən insanlarımızın qayıdış sevincinə şərik oldu. Daha sonra Tərtərin Talış kəndinə, Laçın şəhərinə, Zabux kəndinə, Füzuli şəhərinə köç karvanları yola salındı və bu qayıdış köçləri mərhələli şəkildə uğurla davam etdirilir.

Qarabağ və Şərqi Zəngəzurda müasir yaşayış məskənləri salınmaqla, infrastruktur qurulmaqla yanaşı, erməni vəhşiliyinə tuş gələn abidələrimiz də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə bərpa edilir.

Vətən müharibəsindən ötən üç il müddətində milli maraqlarımızın təmini istiqamətində ard-arda qələbələr qazanan dövlət başçımız İlham Əliyev növbəti tarixi missiyasını 2023-cü il aprelin 23-də həyata keçirdi. Həmin gün Laçın sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi ilə bütün sərhədlərimizdə bayrağımız dalğalandırıldı. Sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri sayəsində isə Qarabağda suverenliyimiz tam bərpa edildi.

Mükəmməl siyasəti, hərbi strategiyası ilə erməni faşizminin başını əzən Müzəffər Ali Baş Komandan İlham Əliyev erməni separatçılarının "miatsum" kitabını birdəfəlik bağlayaraq tarixin tozlu zirzəmilərinə tolazladı. Xalqımızın qanına susamış erməni canilərinin, separatçıların bir çoxu hazırda Bakıda istintaq təcridxanasındadırlar və Azərbaycan qanunları qarşısında cavab verirlər.

Oktyabrın 15-də - Prezident seçilməsinin 20-ci ildönümündə isə Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Əsgəranda, Xocalıda, Ağdərədə, Xocavənddə üçrəngli ay-ulduzlu bayrağımızı əbədi dalğalandıraraq bir daha xalqımıza bütöv Azərbaycanın qürurunu yaşatdı.

Biz də daim öz fəaliyyətimizdə Prezident İlham Əliyevin Azərbaycanın inkişafı, xalqımızın tərəqqisi, rifahı naminə yürütdüyü məqsədyönlü siyasəti nümunə götürür, əməllərimizlə bunu həyata keçirməyə çalışırıq.

Qeyd etmək istərdim ki, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından I Qarabağ müharibəsində 63 nəfər iştirak edib, 1 nəfər şəhid olub, 7 şəhid ailəsi var. II Qarabağ müharibəsində isə 37 nəfər iştirak edib, 2 nəfər şəhid olub, 4 şəhid ailəsi var. AMEA rəhbərliyi və Azad Həmkarlar İttifaqı tərəfindən şəhid ailələrinə, savaş iştirakçılarına daim diqqət, qayğı göstərilir.

Onlar daim diqqətdə saxlanılır, mütəmadi maddi yardımlar, pul mükafatları, ərzaq yardımları verilir. Həmçinin işə götürülərkən və struktur dəyişiklikləri edilərkən qanunvericiliyə əsasən bu kateqoriyadan olan ailələrə üstünlük verilir.

2023-cü il noyabrın 7-də AMEA-da Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə Zəfər Gününə həsr edilmiş tədbir keçiriləcək, I və II Qarabağ savaşının iştirakçılarına, şəhid ailələrinə dəstək göstəriləcək.

**Habil QURBANOV,**
***AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor***

# Gələn il büdcə gəlirlərinin 50,2 faizinin qeyri-neft sektorunun hesabına formalaşacağı proqnozlaşdırılır

**Dövlət büdcəsi paketi hər bir ölkənin inkişafını özündə əks etdirən əsas sənəddir. Bu sənəd ölkənin birillik inkişaf konsepsiyası və strategiyasını müəyyənləşdirir, həmçinin ümdə istiqamətlərini özündə ehtiva etdirir.**

Büdcə eyni zamanda icra orqanları üçün dövlətin prioritet hədəflərini göstərir və həmin hədəflərə çatmağı təmin edir.

Azərbaycanın dövlət büdcəsinin gəlir və xərclərinin hər il artması ölkənin dinamik inkişafının göstəricisidir. Xüsusilə son 5 ildə bu istiqamətdə yüksək artımın şahidi oluruq. Dövlətin maliyyə imkanlarından səmərəli istifadə bütün sahələrin inkişafına və sosial məsələlərin həllinə yol açır.

Hazırda Milli Məclisə növbəti il üçün icmal və dövlət büdcələri üzrə layihələr müzakirəyə təqdim olunub. Layihəyə görə, gələn il üçün dövlət büdcəsinin gəlirləri 34173 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin proqnozu ilə müqayisədə 282,5 milyon manat və ya 0,8 faiz, 2022-ci ilin icra göstəriciləri ilə müqayisədə 3493,4 milyon manat (11,4 faiz) çoxdur. Dövlət büdcəsi xərcləri 36763 milyon manat proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 138,2 milyon manat (0,4 faiz) çoxdur. 2024-cü ildə büdcə kəsirinin yuxarı həddi 2590 milyon manat proqnozlaşdırılır ki, bu da cari illə müqayisədə 144,3 milyon manat və ya 5,3 faiz azdır. Kəsrin ÜDM-də xüsusi çəkisi 2,2 faiz olmaqla cari illə müqayisədə 0,1 faiz-bənd az proqnozlaşdırılmışdır. Bu da normal göstərici sayılır.

Məlumdur ki, hazırda dünya iqtisadiyyatı, yumşaq desək, özünün qeyri-sabit dövrünü yaşayır. Rusiya-Ukrayna




müharibəsi dünyada iqtisadi inkişafa mənfi təsir göstərmişdir. Fələstin-İsrail müharibəsinin də iqtisadi inkişafın və ticarət əlaqələrinin zəifləməsinə təsir göstərəcəyi şübhəsizdir. ABŞ-Çin münasibətlərinin gərginliyi isə dünya iqtisadiyyatının kiçilməsinə səbəb ola bilər. Bir sözlə, dünyadakı siyasi gərginliyin qlobal iqtisadiyyatın inkişaf tempini aşağı salmasına şahidlik edirik.

Gələn ilin dövlət büdcəsi proqnozlaşdırılarkən beynəlxalq aləmdə baş verən bu tendensiyalar da nəzərə alınıb. Belə ki, gələn ilin dövlət büdcəsinin proqnoz layihəsində qlobal siyasətdə artan geosiyasi gərginlik və qarşıdurmaların iqtisadiyyatda qeyri-müəyyənlik yaratması, nəticədə tələb və təklif şoklarının artması da daxil olmaqla təchizat zəncirində qırılmalar, dünyada iqtisadi artım templərinin zəifləməsi, məhdudlaşdırıcı pul siyasətini işə salan iqtisadi şoklar səbəbindən növbəti ildə inflyasiyanın yüksək qalması və digər amillər nəzərə alınıb.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinin sürətlənməsi, mühüm infrastruktur layihələrinin həyata keçirilməsi, Böyük qayıdış proqramının reallaşması üçün atılan addımlar iqtisadi artıma dəstək verməkdədir. 2024-cü il dövlət büdcəsi layihəsindən görünür ki, qeyd olunan amillər gələn ildə ÜDM-nin real artım tempinin 2,4, qeyri-neft (qaz) sektoru üzrə ÜDM-nin real artım tempinin 4,6 faiz artmasına səbəb olacaqdır ki, bu da növbəti ildə fiskal dayanıqlığın təmin edilməsində iqtisadi mühitin əlverişli olacağına geniş zəmin yaradır.

Büdcə proqnozunda, Azərbaycan Respublikası Dövlət Neft Fondundan transfertləri çıxmaqla, dövlət büdcəsinin gəlirləri 21392 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin dövlət büdcəsinin göstəriciləri ilə müqayisədə 760,8 milyon manat (3,4 faiz), 2022-ci ilin icrası ilə müqayisədə 1364,6 milyon manat (6 faiz) azdır.

Gələn il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 49,8 faizi və ya 17164 milyon manatı neft, 50,2 faizi və ya 17009 milyon manatı qeyri-neft sektorlarının payına düşür. Cari ilin dövlət büdcəsinin göstəricisi ilə müqayisədə neft sektorunun gəlirləri (ARDNF-dən transfert daxil olmaqla) 775,7 milyon manat (4,3 faiz) az, qeyri-neft sektorunun gəlirləri isə 1058,2 milyon manat (6,6 faiz) çox, 2022-ci ilin icra göstəriciləri ilə müqayisədə neft sektorunun gəlirləri 1834,4 milyon manat (12 faiz), qeyri-neft sektorunun gəlirləri 1659 milyon manat (10,8 faiz) çoxdur.

Neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 74,8 faizini (12781 milyon manatını) Dövlət Neft Fondundan transfert, 25,5 faizini (4383 milyon manatını) vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edir. Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmalarda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti üzrə büdcə ödənişləri 2 milyard, neft-qaz sahəsində fəaliyyət göstərən Hasilatın Pay Bölgüsü sazişləri çərçivəsində Azəri-Çıraq-Günəşli (AÇG) layihəsi üzrə mənfəət vergisi 370 milyon, "Şahdəniz" yatağından hasil edilən təbii qazın ixracı üzrə isə mənfəət vergisi 1605 milyon manat nəzərdə tutulur.

Azərbaycan dövlətinin gəlirlərində neft-qaz gəlirləri üstünlük təşkil edir. Bununla bərabər, ildən-ilə qeyri-neft-qaz sektorundan gələn gəlirlərin həcmi də artmaqda davam edir. Bunu 2024-cü ilin dövlət büdcəsi layihəsində proqnozlaşdırılan rəqəmlər də təsdiqləyir.

Belə ki, gələn il qeyri-neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 58,1 faizini (9890 milyon manatını) vergi orqanlarının xətti ilə daxilolmalar, 34,7 faizini (5900 milyon manatını) gömrük orqanlarının xətti ilə daxilolmalar, 4,9 faizini (831 milyon manatını) büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, 2,3 faizini (388 milyon manatını) sair gəlirlər təşkil edəcəyi nəzərdə tutulur.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Dünyanın 26 ölkəsini təmsil edən səyyahlar Ağdamda erməni vandalizminin izlərinin şahidi olublar



**Dünyaşöhrətli 4 əsas səyahətçilər şəbəkəsindən biri olan "NomadMania" klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50-yə yaxın üzvdən ibarət heyəti Qarabağ və Şərqi Zəngəzura səfəri çərçivəsində Ağdama gəliblər.**







AZƏRTAC xəbər verir ki, xarici səyahətçilər Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad edildikdən sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.

Səyyahlar Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini və mədəni abidələrə baxış keçiriblər. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, ən inkişaf etmiş şəhərlərindən biri idi. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Ağdam şəhər Cümə məscidi ilə tanış olan səyyahlara məlumat verilib ki, məscid 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində mal-heyvan saxlayıblar. Ağdam şəhəri işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən məscidin bərpasına başlanılıb.

Sonra səyyahlar Ağdam Çörək muzeyinin dağıntıları ilə tanış olublar. Diqqətə çatdırılıb ki, şəhərdəki bütün tikililər kimi, Çörək muzeyinin binası da erməni barbarları tərəfindən dağıdılıb, eksponatları isə ya məhv edilib, ya da talan olunub. Dünyada ikinci hesab edilən bu muzeydə nadir eksponatlar - taxılçılıqla bağlı arxeoloji tapıntılar toplanmışdı. Eksponatlar arasında daşa dönmüş dənlər, əl dəyirmanları, qab-qacaq, qədim kitablar, əlyazmalar, əkinçilik alətlərindən (oraq, xış, taxıldöyən vərdənə və s.) bəhs edən müxtəlif dəyərli nümunələr olub.

Xarici səyyahlar Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına da baxıblar. Ağdam Dram Teatrının qalıqları da bu küçədədir. Onlara ermənilərin mədəni irsimizə, o cümlədən Ağdam Dövlət Dram Teatrına vurduğu zərər barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti sonra Ağdam şəhərindəki Şəhidlər xiyabanında erməni barbarlığının şahidi olub. Məlumat verilib ki, burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladları, o cümlədən Xocalı soyqırımında öldürülən şəhər sakinlərinin bir hissəsi dəfn edilib. Ağdamda hər şeyi məhv edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də qazaraq dağıdıblar.

Qeyd edək ki, qrupa "NomadMania" klubunun rəhbəri, dünyanın səyyah elitasının əsas simalarında biri olan Harri Mitsidis başçılıq edir. Heyət 3 gün ərzində Qarabağ və Şərqi Zəngəzuru gəzəcək, Füzuli-Xocavənd-Şuşa-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl xətti üzrə hərəkət edəcək.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, "NomadMania" və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels", İsveçin "Club 100" klublarının geniş tərkibdə heyətləri ötən 2 ildə Qarabağa və Şərqi Zəngəzura 8 dəfə səfər edib. Bu, sayca 9-cu analoji səfərdir. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, qalanları isə bu il reallaşıb.

Dünyanın səyyah elitasının Qarabağ və Şərqi Zəngəzura ardıcıl səfərləri, hər dəfə heyətin daha da genişlənməsi onu göstərir ki, Azərbaycan dövlətinin bölgədə qısa müddətdə apardığı nəhəng və genişmiqyaslı quruculuq işləri dünyada heyrətlə qarşılanır. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, Ermənistanın törətdiyi müharibə cinayətlərinin yerində nümayişi baxımından da müstəsna əhəmiyyət daşıyır.

# Beynəlxalq səyyahların Şuşanın tarixi məkanları ilə tanışlığı












**Xəbər verdiyimiz kimi, dünyaşöhrətli dörd əsas səyahətçilər şəbəkəsindən biri olan "NomadMania" klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50 nəfərə yaxın heyəti Qarabağa və Şərqi Zəngəzura səfər çərçivəsində əvvəlcə Şuşa şəhərinə gəliblər. Xarici səyyahlar Şuşanın tarixi məkanları və əsrarəngiz təbiəti ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, səyyahlar əvvəlcə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhər mərkəzi meydanına gəliblər. Qonaqlara Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Qeyd olunub ki, işğal zamanı ermənilər Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin heykəllərini Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Səyahətçilər sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə tanış olublar. Sonda Cıdır düzünə gələn səyyahlar buradan açılan əsrarəngiz mənzərəni seyr edib, sonra Ağdama yola düşüblər.

Qeyd edək ki, qrupa "NomadMania" klubunun rəhbəri, dünyanın səyyah elitasının əsas simalarında biri olan Harry Mitsidis başçılıq edir. Heyət üç gün ərzində Qarabağı və Şərqi Zəngəzuru gəzəcək, Füzuli-Xocavənd-Şuşa-Ağdam-Kəlbəcər-Laçın-Zəngilan-Cəbrayıl xətti üzrə hərəkət edəcək. Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, "NomadMania" və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Səyahətçilər Klubunun, Böyük Britaniyanın "Piki Reels", İsveçin "Club 100" klublarının geniş tərkibdə heyətləri ötən iki ildə 8 dəfə Qarabağ və Şərqi Zəngəzura səfər edib. Bu, sayca 9-cu analoji səfərdir. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, digər dördü isə 2023-cü ildə reallaşıb. Dünyanın səyyah elitasının Qarabağ və Şərqi Zəngəzura ardıcıl səfərləri, hər dəfə heyətin daha da genişlənməsi onu göstərir ki, bölgədə qısa müddətdə Azərbaycan dövlətinin apardığı nəhəng və genişmiqyaslı quruculuq işləri dünyada heyrətlə qarşılanır. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, Ermənistanın törətdiyi müharibə cinayətlərinin yerində nümayişi üçün də müstəsna əhəmiyyət daşıyır.

## *Kanadalı səyyah:*
## "Qarabağ bölgəsinin turizm potensialı yüksəkdir"



**"Mənim çoxlu Azərbaycanlı dostlarım var, bu ölkə haqqında çox eşitmişəm. Bu ərazinin turizm üçün möhtəşəm perspektivləri var. Azərbaycan xalqı çox səmimi və mehribandır".**

Bunu AZƏRTAC-a müsahibəsində Kanadadan gəlmiş səyyah Erik Abtan söyləyib.

O, Qarabağ bölgəsinin turizm potensialını yüksək qiymətləndirərək deyib: "Bu ərazi (Qarabağ - red.) beynəlxalq turistlər üçün rahat səyahəti təmin edəcək məkanda yerləşir. Burada olmaqdan məmnunluq duyuram. Mən Azərbaycana daha əvvəl də səfər etmişəm və məmnunluqla buraya yenidən gələcəyimi bildirmək istəyirəm.

## *Ukraynalı səyyah:*
## "Dünya birliyi mina probleminin həllinə kömək göstərməlidir"

**"İki il əvvəl burada olduğum üçün ölkənizdəki inkişafı daha yaxşı müqayisə edə bilirəm. Sürətlə gedən yenidənqurma işləri çox təqdirəlayiqdir".**



Bu sözləri Şuşa şəhərində AZƏRTAC-a müsahibəsində Ukraynadan gəlmiş səyyah Orest Zub söyləyib.

O, mina probleminin dünyanın qarşılaşdığı ən böyük problemlərdən biri olduğunu bildirərək deyib: "Bu problem müharibələr bitdikdən sonra qalan fəlakətlərdir. Buna görə də dünya birliyi insan həyatı üçün təhlükəli olan bu problemin mümkün qədər tez həllində kömək göstərməlidir. Ukrayna hazırda dünyanın ən çox minalanmış yerlərindən biridir, buna görə də mən bu faciəni daha yaxşı anlayıram".

## *ABŞ-dən olan səyyah:*
## "Qarabağda əldə edilən nailiyyətlər bütün türk xalqları üçün qürur mənbəyidir"

**"Qarabağa səfər zamanı biz yeni hava limanı ilə tanış olduq və tikintinin sürətlə aparıldığını gördük. Həmçinin dövlətin bu ərazilərdə quruculuq işləri həyata keçirməsinin şahidi olduq".**



Bunlar yalnız bu ölkənin insanları üçün deyil, bütün region üçün faydalı olacaq. Düşünürəm ki, bu infrastrukturlara yatırım etmək gələcək, sülh və rifah üçün böyük uğur gətirəcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində ABŞ-dən gəlmiş səyyah Brayan Qreko söyləyib.

"Biz Qarabağa "NomadMania" klubu vasitəsilə səfərə gəlmişik. Bu ərazilərlə bağlı məlumatlanmaq üçün buraya dəvət olunmuşuq. Buna görə minnətdarıq. Mən artıq bir neçə ildir Türkiyədə yaşayıram. Orada yalnız türk xalqının mədəniyyəti ilə deyil, Azərbaycan xalqı ilə də yaxından tanış olmuşam. Burada qarşılaşdığımız qonaqpərvərliyə görə minnətdarıq. Burada əldə olunan nailiyyətlər bütün türk xalqları üçün qürur mənbəyidir", - deyə səyyah bildirib.

## *Küveytli səyyah:*
## "Ağdamda, Şuşada dağılmış yaşayış yerlərini görmək kədərlidir"

**"Ağdamda, Şuşada dağılmış binaları, yaşayış yerlərini görmək həqiqətən də kədərlidir. Dünyanın bir çox yerində olmuşam, müharibəni və müharibədən sonrakı vəziyyəti, oxşar tarixi bir neçə yerdə görmüşəm. Müharibə və qarşıdurmalar həmişə ürəyimi parçalayır. Bu binalar, bu evlər bir tarixdir və tarixi məhv etmək çox üzücüdür".**



Bu sözləri Ağdamda AZƏRTAC-a müsahibəsində Küveytdən gəlmiş səyyah Bader Alşuaib söyləyib.

Qarabağ bölgəsinə ilk dəfə səfər etdiyini bildirən küveytli səyyah deyib: "Mən tarixi öyrənmək üçün buradayam. Buranın keçmişini gördüm və indi gələcəyinin necə olacağının az da olsa təsəvvür edirəm. Burada gördüyüm odur ki, Azərbaycan hökuməti bu regionda daha parlaq gələcək qurur. Əgər investisiya şirkətləri buradakı turizm sektoruna maraq görsətsələr, əminəm ki, regionda turizmi inkişaf etdirmək üçün yaxşı potensial var".







# "Dəmir yumruğ"un mülki müdafiə gücü

## Fövqəladə Hallar Nazirliyinin hərbi bölmələri istənilən an öz vəzifələrini çevik və yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdirlər

**Respublikamızın mülki müdafiə qoşunları təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması ilə bağlı çevik reaksiya verilməsini, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin görülməsini təmin edən xüsusi qurumdur. Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi islahatların nəticəsi kimi mülki müdafiə qoşunlarının fəaliyyəti ən müasir standartlara uyğunlaşdırılıb. Fövqəladə Hallar Nazirliyinin yaranmasından sonra onun bazasında fəaliyyət göstərən mülki müdafiə qoşunları ötən illər ərzində böyük inkişaf yolu keçib. FHN-nin yaradılması ilə həm də Silahlı Qüvvələrin tərkib hissəsi olan mülki müdafiə qoşunları sistemində vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılıb.**









### Maddi-texniki baza gücləndirilib

Fövqəladə Hallar Nazirliyinin yaradılması ölkəmizdə mülki müdafiə sisteminin inkişafında böyük rol oynayıb. Ötən 18 ilə yaxın müddətdə nazirlik fövqəladə hallarla mübarizə sahəsində etibarlı şəbəkənin yaradılması, mülki müdafiə ilə bağlı mühüm işlər görüb. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilib, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulub. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hələ 2011-ci ildə Fövqəladə Hallar Nazirliyinin mülki müdafiə qoşunlarına döyüş bayrağını təqdim etməsi dövlət başçısının bu sahəyə diqqətinin təcəssümü idi. Məhz bu diqqət və qayğının, görülən işlərin nəticəsidir ki, mülki müdafiə qoşunları ölkəmizdə baş vermiş təbiət hadisələri - zəlzələ və sel daşqınları, habelə texnogen qəzalar zamanı öz vəzifələrini layiqincə yerinə yetiriblər.

Bu günlərdə FHN-nin mülki müdafiə qoşunlarının "N" saylı qəza-xilasetmə alayında mülki müdafiə sahəsində görülmüş işlərin şahidi olduq. Alayın taborları və digər bölmələri ilə tanışlığımız göstərdi ki, bu sahədə ixtisaslaşmış hərbi hissələrdə yaradılmış şərait və imkanlar, ən əsası belə hərbi hissələrin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi ən müasir standartlara tam cavab verir.

Alayın komandiri polkovnik Şəmsəddin Əmrahov bildirdi ki, Fövqəladə Hallar Nazirliyinin yaradılmasından sonra respublikamızın mülki müdafiə qoşunlarının fəaliyyəti yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. "Alayın taborları və əlahiddə bölmələri ən müasir qəza-xilasetmə avadanlıqları ilə təmin olunmuşdur. Eyni zamanda respublikamızda bu sahədə həyata keçirilən kadr hazırlığının nəticəsi kimi hərbi hissənin zabit heyəti qəza-xilasetmə işlərini bilən peşəkarlardan ibarətdir. Bütün bunlar isə təbii və texnogen xarakterli fövqəladə hallar zamanı hərbi hissənin şəxsi heyəti tərəfindən xilasetmə işlərinin yüksək səviyyədə həyata keçirilməsini təmin edir", - hərbi hissənin komandiri deyir.

Öyrənirik ki, hərbi hissə qəza-xilasetmə və xilas taborlarından, əlahiddə radiasiya və kimyadan mühafizə və maddi təminat bölüklərindən, habelə əlahiddə yanğından mühafizə, rabitə və komendant taqımlarından ibarətdir.

### Hər bir əsgər peşəkar və təcrübəli xilasedicidir

Hərbi hissəyə gəlişimiz bütün bölmələri əhatə edən əsgərlərin dərs saatına təsadüf etmişdi. Hərbi hissə ilə tanışlığımız alayın hazırlıq planına uyğun olaraq qəza-xilasetmə taborunun şəxsi heyəti üçün ilk baxışdan səliqə-sahmanı ilə fərqlənən ikimərtəbəli tədris korpusunda keçirilən dərslərlə başladı. Burada yaradılmış siniflərdə fərdi mühafizə, bioloji vasitələrin yaratdığı xəstəliklər, güclü təsiredici zəhərləyici maddələrin xassələri haqqında əyani vəsaitlər yerləşdirilmişdir. Bununla bərabər, şəxsi heyət döyüş mərmiləri və başlıqları, təhlükəsizlik qaydaları, fuqaslı və qəlpəli piyada və tank əleyhinə minalar barədə də təlimatlandırılır.

Qəza-xilasetmə taborunun komandiri polkovnik-leytenant Elməddin Cəfərovun sözlərinə görə, günun nizam qaydalarına uyğun olaraq əsgərlər hər gün hərbi hissənin tədris korpusunda radiasiya və kimyadan mühafizə hazırlığı, mühəndis hazırlığı, tibbi hazırlıq dərslərində müxtəlif mövzulu məşğələlər keçirlər. Eyni zamanda mülki müdafiə dərslərində öyrədilən nəzəri biliklərin praktiki məşğələlərlə əlaqələndirilməsinə böyük diqqət yetirilir. "Bu dərslərdə keçirilən məşğələlərin hər biri əsgərlərin qəza-xilasetmə işləri zamanı qarşılarında dayanan vəzifələri vaxtında və uğurla yerinə yetirmələri baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Bu məşğələlərdə öyrənilən nəzəri biliklər isə praktik təlimlərdə daha da möhkəmləndirilir. Ona görə əsgərlərimizin hər biri hərbi xidmət zamanı peşəkar və təcrübəli xilasedici kimi formalaşırlar", - deyə tabor komandiri bildirir.

Radiasiya və kimyadan mühafizə hazırlığı dərsində fərdi mühafizə vasitələrindən istifadə mövzusunda məşğələ keçirilirdi. Baş leytenant Mirdadaş Zəkiyev əsgərlərə fərdi mühafizə vasitələrinin təyinatını, yığılmasını və çantalarına yığılması qaydalarını, onların hermetikliyinin, o cümlədən süzücüuducu filtrlərin işlək vəziyyətdə olmasının yoxlanılmasını izah edirdi.

Fərdi mühafizə vasitələri xilasediciləri ehtimal olunan radiaktiv tozlardan, zəhərli maddələrdən və bioloji aerozollardan müdafiə etmək üçündür. Hərbi hissənin xilasedicilər tərəfindən qəza-xilasetmə işləri zamanı istifadə olunan 4 səviyyəli fərdi mühafizə geyimlərinin hər biri öz yüksək keyfiyyəti ilə fərqlənir.

### İlkin tibbi yardım xilasetmə əməliyyatları zamanı ən vacib məsələlərdən biridir

Tədris korpusunun ikinci mərtəbəsində yaradılmış stenddə nümayiş olunan fotolarda Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin müxtəlif dövrlərində həyata keçirdiyi çoxşaxəli fəaliyyəti, Prezident İlham Əliyevin Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinə diqqət və qayğısını əks etdirən anlar əksini tapmışdır. Eyni zamanda fotolarda fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı həyata keçirilən fəaliyyətin ayrı-ayrı istiqamətləri əks olunub.

Daha sonra mühəndis hazırlığı dərsinin gedişi ilə tanış olduq. Baş leytenant Elvin Musayev əsgərlərə tank və piyada əleyhinə minaların zərərsizləşdirilməsi ilə bağlı məşğələ keçirdi. Burada diqqətimizi çəkən əsas məsələ mövzu ilə bağlı tədris vasitələrinin bolluğu oldu. Bu, əsgərlərə minaların xarakteristikası ilə daha da yaxından tanış olmağa imkan verir.

Qəza-xilasetmə taborunun digər bölüyü isə tibbi hazırlıq dərsində idi. Alayın tibb xidmətinin rəisi, tibb xidməti mayoru Ülvi Ağazadə onlara təxirəsalınmaz ilkin tibbi yardımla bağlı məşğələ keçirdi. Bu sinifdə də xilasedici əsgərlərin ilkin tibbi yardımla bağlı vərdişlərinin mükəmməl formalaşması üçün hər bir şərait yaradılıb. Bizi müşayiət edən alayın komandirinin birinci müavini polkovnik Həzi Bəşirov deyir ki, əsgərlərdə ilkin tibbi yardım vərdişlərinin formalaşması xilasetmə əməliyyatları zamanı ən vacib məsələlərdən biridir: "Çünki xilas edilən şəxsə bütün hallarda ilk olaraq ilkin tibbi yardımın göstərilməsinə ehtiyac var. Qəza-xilasetmə alayında isə şəxsi heyətə ilkin tibbi yardımın bütün formaları dərindən öyrədilir".

### Alayın xilasediciləri Türkiyədə də fərqləniblər

Alayda növbəti baş çəkdiyimiz ünvan avtomobil parkı oldu. Burada isə hərbi hissənin çevik xilasetmə qrupuna qəza-xilasetmə işləri zamanı avadanlıqlardan istifadənin təşkili ilə bağlı məşğələ keçirilirdi. Alay komandirinin müavini, hərbi hissənin qərargah rəisi polkovnik-leytenant Anar Məmmədovun bildirdiyinə görə, mülki müdafiə qoşunları dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşınlarla və mexanizmlərlə təmin edilmişdir. Qəza-xilasetmə əməliyyatlarında istifadə olunan bütün avadanlıqlar ən müasir standartlara cavab verir. Ona görə də indiyə kimi xilasedicilərimiz hansısa əməliyyat zamanı çətinliklə üzləşməyiblər.

Ümumiyyətlə, ötən illərin mənzərəsi göstərir ki, FHN istənilən şəraitdə fövqəladə hallara cavab tədbirlərin görülməsinə, təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılmasına, hadisələrə çevik və operativ reaksiya verilməsinə hər zaman hazırdır. FHN-nin qurumları xarici dövlətlərdə də mülki müdafiə işində, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq göstəriblər.

"Başqa ölkələrdə baş vermiş təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması işində nazirliyin əməkdaşları Azərbaycanı ləyaqətlə təmsil etmişlər, bizim üçün dost olan ölkələrdə təbii fəlakətlərlə mübarizədə böyük uğurlar əldə etmişlər. Nazirliyin əməkdaşlarının fəaliyyəti digər ölkələrdə də qiymətləndirilir", - deyə Prezident İlham Əliyev bildirib. Buna misal olaraq FHN-nin xilasetmə dəstələrinin iki il əvvəl Türkiyədə meşə yanğınlarının söndürülməsində fəal iştirak etməsini göstərə bilərik. Bu il fevralın əvvəlində isə Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən, FHN-nin qüvvələri qardaş ölkədə öz missiyalarını layiqincə yerinə yetiriblər.

Avtomobil parkındakı məşğələni izləyən zaman onu da öyrənirik ki, qardaş Türkiyədə baş vermiş meşə yanğınları və zəlzələ zamanı Azərbaycandan gedən xilasedicilər arasında bu alayın hərbçiləri də olublar. Onların hər biri xilasetmə əməliyyatları zamanı öz peşə borclarını layiqincə yerinə yetiriblər.

Çevik xilasetmə qrupuna təlim keçən kapitan Nahid Təhməzov Türkiyə Respublikasında baş verən meşə yanğınlarının söndürülməsi, eləcə də bu ilin fevral ayında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasında xilasedici kimi fəal iştirak edib. Məhz həmin xilasetmə əməliyyatları zamanı göstərdiyi şücaətlərə görə, Prezident İlham Əliyev tərəfindən "Hərbi xidmətlərə görə" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Bütövlükdə mülki müdafiə qoşunlarının texniki imkanları olduqca yüksək səviyyədədir. Elə buna görə xilasedicilərimizin fövqəladə hallarda cavab tədbirlərinin görülməsində, təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılmasında, hadisələrə çevik və operativ reaksiya verilməsində göstərdiyi fədakarlıqlar xarici tərəfdaşlar tərəfindən də yüksək qiymətləndirilir.

### Şəxsi heyət vəzifəsini böyük ruh yüksəkliyi ilə yerinə yetirməyə hazırdır

Hərbi hissədə şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti də diqqət mərkəzində saxlanılır. Alay komandirinin psixoloji təminat üzrə müavini polkovnik-leytenant Samir Fərəməzov deyir ki, hərbi hissəyə gəldiyi ilk gündən bütün əsgərlərin mənəvi-psixoloji vəziyyətləri öyrənilir, onlarla fərdi söhbətlər aparılır: "Ümumiyyətlə, bu sahədə hansısa ciddi narahatlıq müşahidə olunmayıb. İlk üç ayı təlim hərbi hissəsində xidmət keçdikləri üçün bu alaya gələndə əsgərlər artıq hərbi həyata alışmış olurlar. Bununla yanaşı, komandir heyəti bütün xidmət dövründə əsgərlərin mənəvi-psixoloji vəziyyətini diqqət mərkəzində saxlayır. Məşğələlərdə həm də əsgərlərin vətənpərvərlik ruhunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. Əminliklə deyə bilərəm ki, hər bir əsgərimiz öz qarşısında dayanan vəzifələri böyük ruh yüksəkliyi ilə yerinə yetirməyə hazırdır".

Alayda əsgərlərin asudə vaxtlarının mənalı təşkilinə də diqqətlə yanaşılır. Belə ki, tədris korpusundakı kinoklubda əsgərlərin film izləmələri üçün gözəl şərait var. Tədris korpusunda kitabxana da yaradılıb və əsgərlər boş vaxtlarında buradakı ədəbiyyatla tanış ola bilirlər. Elə burada əsgər Məhəmməd Əli Üzerlə söhbətləşirik. Gəncə şəhərindən hərbi xidmətlə bağlı təəssüratlarını bizimlə bölüşdü: "Bu il Azərbaycan Texnologiya Universitetini başa vurduqdan sonra hərbi xidmətə gəlmişəm. Əlbəttə ki, hərbi həyat mülki həyatdan fərqlənir. Hərbi həyatda daha ciddi intizam var. Amma bu, məni qorxutmur, əksinə, gələcək həyatda daha da intizamlı və məsuliyyətli olmağı öyrədir. Ona görə hesab edirəm ki, hərbi xidmət mənim üçün həm də həyat məktəbidir. Komandirlərimiz öz bilik və təcrübələrini bizə dərindən başa salırlar və xidmət keçdiyim qısa müddətdə qəza-xilasetmə işlərinin bir çox incəliyinə yiyələnmişəm. Əgər zərurət yaranarsa, bir əsgər kimi öz vəzifəmi uğurla yerinə yetirə biləcəyimə əminəm".

Daha sonra hərbi hissənin tibb məntəqəsində yaradılmış şəraitlə tanış olduq. Məntəqə müasir tibbi avadanlıq və bütün zəruri dərman preparatları ilə təmin edilib. Burada zabit və əsgərlərin müalicəsi üçün hər bir imkan yaradılıb.

Hərbi hissənin əsgər yataqxanası da səliqə-sahmanı ilə göz oxşayır. Yataqxana əsgərlərin istirahəti, məişət şəraiti və yuyunması üçün ən yüksək səviyyədə təşkil edilib.

Hərbi hissədə əsgərlərin qidalanma şəraiti də müasir tələblər səviyyəsindədir. Yeməkxanada əsgər və zabitlərin keyfiyyətli qidalanması üçün hər cür şərait yaradılıb.

Mülki müdafiə qoşunlarının "N" saylı qəza-xilasetmə alayında bir daha əmin olduq ki, Azərbaycanda güclü mülki müdafiə sistemi formalaşıb. Mülki müdafiə qüvvələrinin hər bir bölməsi istənilən an, istənilən yerdə təbii və texnogen hadisələrə çevik və operativ, o cümlədən yüksək peşəkarlıqla reaksiya verilməsinə hazırdır. Bütün bunlar Azərbaycanın inkişafının, dövlət orqanlarının fəaliyyətinin ən müasir standartlar səviyyəsinə çatdırılmasının göstəricisidir. Mülki müdafiə sisteminin imkanlarının ən müasir tələblər səviyyəsində saxlanılması, maddi-texniki bazanın daim yenilənməsi sahəsində işlər isə bundan sonra da əzmlə davam etdiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*















# 5-6 noyabr 2020-ci il

# Azərbaycan: ZƏFƏR gündəliyi



**Noyabrın 5-nə** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə, əsasən, cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.



❖ ❖ ❖

Səhər saatlarınadək Goranboy və Tərtər rayonlarının yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən fasilələrlə atəşə tutulur.

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 ədəd mərmi atılır.

❖ ❖ ❖

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulur. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar var.

Atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılır, artilleriya qurğuları tam sıradan çıxarılır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan atəşə tutur.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri döyüş meydanında silah-sursatını, texnikasını qoyub qaçır. Müdafiə Nazirliyi qənimət olaraq ələ keçirilən hərbi texnikaların görüntüsünü yayır.

❖ ❖ ❖

Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutur.



Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

❖ ❖ ❖

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulur.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılır.

❖ ❖ ❖

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəhbəri, polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində brifinq keçirərək cəbhədəki son vəziyyətlə bağlı məlumat verir.

Qeyd edilir ki, Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumları, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınır. Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Azərbaycan Müdafiə Nazirliyi ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırır. Bütün videotəsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir: "Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir".

❖ ❖ ❖

**Noyabrın 6-na** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivliklə, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenə atəşə tutur.

Noyabrın 5-dən 6-na keçən gecədən başlayaraq səhər saat 05:00-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrinin mövqeləri düşmən tərəfindən fasilələrlə atəşə tutulur.

❖ ❖ ❖

Saat 08:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Qazyan və Hüsənli kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür. Gecə ərzində Goranboy rayonunun Tapqaraqoyunlu kəndi də düşmən tərəfindən artilleriya atəşinə tutulur.

❖ ❖ ❖

Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində brifinq keçirilir. Cəbhədəki vəziyyət barədə məlumat verilir. Qeyd edilir ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.



Düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən onun yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Düşmən bölmələrinin idarə olunmasında problemlər var.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən erməni silahlıları mövqelərini ataraq qaçır.

❖ ❖ ❖

Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayır. Görüntülərdə erməni vandalizminin izləri aydın şəkildə görünür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan D-30 haubitsasının heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilir.

❖ ❖ ❖

Ağdərədə yerləşən Ermənistan silahlı qüvvələri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının bölmələrinin təminatında ciddi çatışmazlıqlar yaranır. Belə ki, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatları, yanacaq-sürtkü materialları çatışmır.

Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldurmaq imkanına malik deyil.

Bundan əlavə, qeyd olunan hərbi hissələrlə komandanlıq arasında rabitə əlaqəsi kəsilir və bölmələrin idarə olunmasında problemlər yaranır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistan: məğlubiyyətin xronikası

Qarabağ müharibəsi işğalçı Ermənistanın böyük zərbələr alması ilə müşayiət olunur. Hərb cəbhəsi ilə yanaşı, diplomatik müstəvidə də Ermənistanın dalana dirənməsi ölkədəki siyasi gərginliyi pik həddə çatdırıb. Ermənistanda artıq etiraf edirlər ki, Azərbaycan Dağlıq Qarabağ məsələsində öz şərtlərini rahatlıqla diktə etməkdədir.

Ermənistan rəhbərliyi problemin dinc müstəvidə həlli məqsədilə onlara verilən şansı lazımınca dəyərləndirmədi. Bu gün isə əzəli Azərbaycan torpaqlarından qaçmağa məcburdurlar. Artıq Dağlıq Qarabağdakı qondarma "respublika"nın administrasiyası Yerevana köçürülüb. Bu barədə separatçıların lideri Arayik Arutyunyanın feysbuk səhifəsində məlumat paylaşılıb. Bildirilir ki, onlar "fəaliyyətlərini" Ermənistanda "davam etdirəcəklər".

Beləliklə, Azərbaycan işğal olunmuş ərazilərdə ermənilərin yaratdığı qondarma idarəçiliyə son qoyub. Separatçılar rəsmən Qarabağı tərk etməyə məcbur olublar və qondarma rejimin paytaxtı artıq Yerevandır. Qarabağda isə hazırda bir idarəetmə sistemi var və onu da Azərbaycan Ordusu inamla həyata keçirir.

Ümumiyyətlə, daim sosial şəbəkələrdə fəal olan separatçıların liderini son günlərdə görən olmayıb. Onun adından sosial şəbəkələrdə məlumatlar yayılsa da, görüntüsü yoxdur. İstisna edilmir ki, separatçı ordunun rəhbəri kimi A.Arutyunyan da Azərbaycan Ordusu tərəfindən məhv edilib.

❖ ❖ ❖

Ermənistanın Azərbaycanla müharibə aparmaq üçün potensialı tamamilə tükənib. Bir müddət əvvəl cəbhəyə göndərməyə adam tapmayan N.Paşinyan qocaları, qadınları və uşaqları döyüşə cəlb etməyə başlamışdır. Bunun da bir faydasının olmadığını görən baş nazir son ümidini cinayətkarlara bağlayıb. Belə ki, Ermənistanda yenidən bir qrup məhkum cəbhəyə göndərilmək üçün həbsdən azad edilib. Ermənistanın baş prokurorluğundan verilən məlumata görə, bundan əvvəl həbsdə olan 16 nəfər də döyüşə göndərilib.

Hazırda həbsdə olan digər məhbuslardan ibarət dəstənin yaradılması nəzərdən keçirilir. Ölkənin ədliyyə naziri Rüstəm Badasyan Ermənistanda məhbuslardan ibarət könüllü dəstələrin Dağlıq Qarabağa döyüşlərə göndərilməsi məsələsinin nəzərdən keçirildiyini təsdiqləyib. O bildirib ki, məhbusların cəbhəyə yollanması üçün onların barəsində verilən həbs qərarlarını dəyişmək lazımdır.

Vaxtilə cinayət törətmiş həmin məhbusların Qarabağ uğrunda döyüşməyəcəkləri isə gün kimi aydındır. Onlar ilk fürsətdəcə hazırda xaos səbəbindən cinayətkarlığın baş alıb getdiyi Ermənistana qaçacaqlar.

❖ ❖ ❖

Azərbaycan Ordusuna qarşı döyüşlərdə məğlub olan Ermənistanda fərarilik halları getdikcə artır. Ölkədə cəbhəyə getməkdən yayınanlar sərt şəkildə cəzalandırılırlar, hətta onların qohumları girov saxlanılırlar.



Hüquqşünas Robert Hayrapetyan sosial şəbəkədəki hesabında yazıb ki, yeni doğulmuş körpələrə yalnız ataları könüllü olaraq cəbhəyə getdikdə və anaları xəstəxanalarda girov saxlanıldıqda şəhadətnamə verilir: "Hər dəqiqə vətənpərvərlikdən danışanlar zəif insanlarımıza qarşı ikiüzlülükdən başqa bir şey etmirlər. Uşaq doğulduqdan bir gün sonra doğum haqqında şəhadətnamənin yalnız uşağın atasının cəbhəyə könüllü getməsi barədə təsdiq sənədinin təqdim edilməsi şərti ilə veriləcəyini necə etmək olar? Uşaqları və analarını girov götürürsünüz, yoxsa onlarla danışıqlar masasında oturmağa qərar vermisiniz? Sizdə beyin var?"

Bu arada Dağlıq Qarabağdan mülki ermənilərin qaçışı daha da sürətlənib. "Qraparak" qəzeti yazır ki, ermənilər Xankəndi şəhərini tərk etməkdə davam edir. Xüsusən son günlər əhali intensiv şəkildə şəhərdən çıxıb və sakinlərin azalması ilə küçələr boş qalıb. Xankəndinin "mer"i David Sarkisyan qeyd edib ki, sentyabrın 27-də Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayana qədər şəhərdə 56 min sakin yaşayıb: "İndi isə bu rəqəm 17 min təşkil edir. Sakinlərin əksəriyyəti Ermənistana köçüb".

❖ ❖ ❖

Rusiyanın "Rusbankrot.ru" nəşri yazıb ki, müharibə silah tədarükçülərinə nəhəng gəlir gətirsə də, döyüş iştirakçılarını iflasla üz-üzə qoyur. Ermənistanla Azərbaycan arasında münaqişə də bu baxımdan istisna deyil. Dağlıq Qarabağda bir aydan çoxdur ki, davam edən döyüş əməliyyatları kreditlər içində çabalayan Ermənistan iqtisadiyyatını daha da ağır vəziyyətə salıb. Məqalədə qeyd olunur ki, bu müddət ərzində Ermənistan 250-dən çox tank, hava hücumundan müdafiə sistemləri, yüzlərlə yük maşını, artilleriya vahidi itirib.

Komanda məntəqələrinin və silah anbarlarının məhv edilməsi də ölkə iqtisadiyyatına əhəmiyyətli zərbə vurub. Mütəxəssislərin hesablamalarına görə, Ermənistanın müharibə itkiləri bir neçə milyard dollar təşkil edir. Məqalədə bildirilir ki, indi Yerevan qarşısında ciddi sual dayanır: kreditlər necə qaytarılacaq? Çünki yeni borcların alınması, ya da milli valyutanı dəyərsizləşdirmək bahasına yeni pullar çap etmək heç nəyi həll etməyəcək: "Artıq bu ilin iyulunda Ermənistanın dövlət borcu rekord həddə - 8 milyard dollar həddinə çatmışdı. "Fitch" reytinq agentliyi bu ilin sonunadək ölkə iqtisadiyyatının defoltla üzləşəcəyini proqnozlaşdırırdı. Bununla belə Yerevan xaricdən borc almaq ümidini də itirib, çünki ölkədə müharibə gedir, bundan başqa, koronavirus pandemiyası davam edir, ölkə iqtisadiyyatı hələ də tətbiq olunmuş məhdudiyyətlərdən özünə gələ bilməyib".



Bu arada Dağlıq Qarabağdan Ermənistana külli miqdarda silah-sursat daşınması ilə bağlı ölkə mediası çoxlu faktlar aşkarlayıb. "4rd.am" saytı yazır ki, Ermənistanın Vayk şəhərində polis şöbəsinə daxil olan operativ məlumatlar əsasında Qarabağdan qayıdan avtomobillərə baxış zamanı silahlar, dəbilqələr, güllə keçirməyən jiletlər, hərbi bıçaqlar, xeyli sayda güllə və digər hərbi avadanlıqlar götürülüb.



Ermənistanın Sünik və Sisian polis bölmələrinin əməkdaşları tərəfindən Qarabağdan qayıdan "UAZ" markalı avtomobilə baxış keçirilərkən maşında gizlədilmiş "Kalaşnikov" avtomatları və xeyli sayda güllə müəyyən edilib. Qeyd olunur ki, bütün bunlar yaxın müddətdə Ermənistanda silahlı qiyam təhlükəsinin olduğuna işarədir.

Hazırda Ermənistanda bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Azərbaycan tərəfindən hərbi məğlubiyyətə uğradılan işğalçı dövlət tarixinin ən ağır və əzablı günlərini yaşayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Əbədi dalğalan, ey şanlı Bayraq!



**Qürurla dalğalan, Azərbaycan Bayrağı! Sənə qürurla dalğalanmaq yaraşır!**

Sən ucaldığın gündən tarixin çox qovğasına, siyasi çəkişmələrinə şahid oldun. Rəmzi olduğun müstəqil Azərbaycan dövləti 1920-ci il aprelin 28-də süquta uğradıldı. Dalğalandığın yerləri bolşeviklər işğal etdi. Səni göylərdən yerə endirməyə çalışanlar məqsədlərinə çatdıqlarını düşündülər. Yetmiş il Azərbaycan azadlığına, müstəqilliyinə həsrət qaldı. Sən də həmin illərdə gün işığı görmədin.

1990-cı illərdə Azərbaycanın müstəqilliyinə qovuşması ilə sənin də işıqlı, nurlu günlərin yenidən başladı. Ancaq sevincin qubarlı, səadətin yarımçıq oldu. Çünki həmin illərdə qəsbkar ermənilər Azərbaycandan yeni ərazilər qoparmaq niyyətindəydilər. Qarabağda quldur ermənilər azərbaycanlılara silahlı hücumlar edir, qətlə yetirirdilər.

Sovet hökuməti dağılır, ittifaqa daxil olan respublikaların iqtisadiyyatı çökürdü. Azərbaycan da iqtisadi böhran içərisində ağır günlər keçirirdi. Nə milli ordusunu qura bilmişdi, nə də Vətən naminə könüllü döyüşən igidlərinə verməyə silah-sursatı vardı.

Qəddar, qatil ermənilər isə xarici havadarlarından hər cür yardım alırdılar. Dövrün müasir silahları ilə silahlandırılırdılar, ərzaq korluğu çəkmirdilər. Düşmən güclənəndə daha da amansız, daha da qəddar olurmuş. Bunu Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində Qarabağda, Zəngəzurda gördü. Erməni vandalları körpəsindən qocasına, şikəstinədək əllərinə keçən heç bir azərbaycanlıya rəhm etmədilər, aman vermədilər. Günahsız insanlara o qədər dəhşətli işgəncələr verdilər ki, onlar ölümü qurtuluş bildilər.

Qarabağda, Zəngəzurda təcavüzkar ermənilər kütləvi qırğınlar, soyqırımları törətdilər. Həmin ərazilərdə yaşayan azərbaycanlıları dədə-baba yurdlarından didərgin saldılar. Evlərini yağmaladılar, od vurub yandırdılar.

İşğal etdikləri o yerlərdə otuz ilə yaxın meydan suladı ermənilər. Qarabağda, Zəngəzurda yurd yerləri əsl sakinlərinin yolunu həsrətlə gözlədi. Göylər isə sənin üçün darıxdı, qubarlandı, Azərbaycan Bayrağı...

2020-ci ilin payızında baş verən Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu işğalçı Ermənistanın silahlı qüvvələrini məğlub etdi. Döyüş meydanlarında igid Azərbaycan döyüşçüləri hünər göstərərək otuz ilə yaxın davam edən işğala son qoydular. Düşməndən geri alınan yaşayış yerlərimizdə, strateji yüksəkliklərimizdə Azərbaycan Bayrağını ucaltdılar.

Amma işğalçılar Vətən müharibəsində aldıqları dərslərdən nəticə çıxarmadılar. Qarabağ bölgəsindən gözlərini çəkmədilər. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutdular, ərazilərimizi minalamaqda, döyüş mövqelərini mühəndis cəhətdən təkmilləşdirməkdə, səngər və sığınacaqlarının sayını çoxaltmaqda davam etdilər.

Üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, eləcə də bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Və düşmən 23 saat 43 dəqiqə ərzində məğlub oldu.

Sentyabrın 20-də Prezident İlham Əliyev xalqa müraciətində lokal antiterror tədbirlərinin başlandığı anlardan hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət və peşəkarlıq göstərərək qısa müddət ərzində bütün istiqamətlərdə əhəmiyyətli dərəcədə hərbi uğurlara nail olduqlarını bəyan etdi.

Oktyabrın 15-i Azərbaycan xalqı üçün tarixi bir gün oldu. Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldan Pezident İlham Əliyev bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etdi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Rəmzi olduğun Azərbaycan dövləti suverenliyini tam bərpa etdi. Bu gün Azərbaycan bütün dünyada müstəqil siyasət yürüdən dövlət olaraq tanınır. Gündən-günə inkişaf edir. Sən durduğun ucalıqda arxayın-arxayın dalğalan, şanlı Azərbaycan Bayrağı!

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Gələn ilin makroiqtisadi proqnozları davamlı inkişafdan xəbər verir

## İnflyasiya 5 faiz civarında olacaq

**Bu gün qlobal iqtisadiyyat demək olar ki, tənəzzülə uğrayıb. Dünyanın müxtəlif regionlarında baş verən hərbi əməliyyatların fəsadları dünya iqtisadiyyatına çox böyük kölgə salır. Beynəlxalq Valyuta Fondu hesab edir ki, qlobal iqtisadiyyat İkinci Dünya müharibəsindən sonra indi böyük imtahan qarşısındadır. Amma bu fonda Azərbaycanın dayanıqlı inkişafı və maliyyə imkanı ölkədə siyasi, iqtisadi və sosial sabitliyi təmin edib.**



Bu gün ölkədə makroiqtisadi vəziyyər tam sabitdir. Yeri gəlmişkən, xatırladaq ki, makroiqtisadiyyat milli iqtisadiyyatın strukturunu və fəaliyyətini, eləcə də dövlətin həyata keçirdiyi siyasətin bu fəaliyyətə necə təsir etdiyini öyrənən elm sahəsidir. Adından da göründüyü kimi, iqtisadiyyatın bu qolu fərdi bazarlar səviyyəsində deyil, iqtisadiyyatdakı fəaliyyəti, strukturu, davranışı və qərarverməni öyrənir. Həmçinin makroiqtisadiyyatda bir çox iqtisadi amillər (gəlir, istehsal, istehlak, işsizlik, inflyasiya, yığım, investisiya, beynəlxalq ticarət və beynəlxalq maliyyə) arasında qarşılıqlı əlaqəni və təsiri göstərmək üçün xeyli model var. Azərbaycan həmin modellərdən doğru istifadə etməklə iqtisadi sahədə uğurlar əldə edib və yeni inkişaf modelinin əsasını qoyub.

Son illər Azərbaycan ümumi daxili məhsulun artım dinamikasına görə dünya dövlətlərinin lideri statusunu daşıyır. Bunun önəmli səbəblərindən biri Azərbaycan iqtisadiyyatının inkişafının təkcə enerji sektoru üzərində qurulması deyil, həm də digər mühüm sahələri əhatə etməsi və makroiqtisadi sabitliyin təmin edilməsidir. Bu faktı Prezident İlham Əliyev cari ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədəki çıxışı zamanı da təsdiq edib: "Bir çox ölkələrdə, hətta ölkələrin əksəriyyətində biz tamamilə başqa mənzərə görürük. Amma bizdə xarici ticarət balansımızın müsbət, yəni profisiti çox böyük səviyyədədir. Ölkələrin böyük əksəriyyəti daha çox idxal edir, nəinki ixrac edir. Bizdə isə bu, tam əksinədir və ilin birinci 6 ayında bizim profisitimiz təqribən 10 milyard dollara yaxındır. Əgər bu templər qorunsa, təsəvvür edin, biz ilin sonuna qədər hansı rəqəmlərə çatacağıq. Təbii ki, bunun birbaşa təsiri makroiqtisadi sabitliyin təmin edilməsindədir. Makroiqtisadi sabitlik uzun illər ərzində təmin edilir. Manatın məzənnəsi 6 aydır ki, sabitdir və bu da dünya praktikasında, xüsusilə indiki şəraitdə nadir hadisələrdən biridir. Yəni bu, düşünülmüş siyasətin təzahürüdür və bu siyasətin mərkəzində təbii ki, Azərbaycan vətəndaşı dayanır. Çünki makroiqtisadi sabitlik ölkə iqtisadiyyatına təsir edir. Amma ilk növbədə ən ciddi təsiri insanların yaşayış səviyyəsinədir. Bizdə isə həm minimum əməkhaqqı, həm minimum pensiyalar müntəzəm olaraq artırılır. Bununla paralel olaraq manat sabitdir".

İqtisadi sahədə qazanılan uğurlar əhalinin maddi-rifah halının yüksəlməsində, həyat tərzinin yaxşılaşmasında, yeni modern sosial infrastrukturun yaradılmasında da özünü qabarıq büruzə verir. Bunun nəticəsidir ki, Azərbaycan həm də yaşayış üçün dünyanın ən yaxşı ölkələri sırasında yer alır. Onu da qeyd edək ki, ölkəmizin uğurlu inkişafında, əldə olunmuş hərtərəfli yüksəlişində neft-qaz sənayesinin çox böyük çəkisi var. Ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sahəsi hələ uzun illər böyük gəlirlər gətirəcək. Bunu mütəxəssislər də etiraf edir, verilən iqtisadi proqnozlar da real təsdiqləyir.

Elə burada faktlara müraciət edək: İqtisadiyyat Nazirliyi tərəfindən 2024-cü il və sonrakı 3 il üzrə baza-ssenaridə (neftin 1 barelinin orta illik ixrac qiyməti 2024-2027-ci illər üçün 60 dollar fərz edilməklə) göstərilib ki, makroiqtisadi proqnoz göstəricilərinə əsasən, 2024-cü ildə ölkədə ÜDM-nin real ifadədə 2,4 faiz artaraq 118,4 milyard, o cümlədən qeyri-neft (qaz) real ifadədə 4,6 faiz artaraq 84,2 milyard manat təşkil edəcəyi gözlənilir. Növbəti ildə ÜDM-nin tərkibində qeyri-neft (qaz) sektorunun payının cari ilin proqnozuna nəzərən 6,2 faiz-bənd artımla 71,1 faizə çatacağı gözlənilir. Proqnozlara əsasən, 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM real ifadədə 1,7 faiz azalacaqdır.

İcmal və dövlət büdcələri üzrə layihədə əmtəə bazarlarında 2024-cü ildə qiymətlərin aşağı enəcəyi də proqnozlaşdırılıb. Bəllidir ki, bazar əmtəə xidmətlərinin və digər obyektlərin alqı-satqısı ilə əlaqədar təsərrüfat subyektləri arasında olan sosial-iqtisadi münasibətlər sistemidir. Həmçinin o da məlumdur ki, müasir bazar mürəkkəb struktura malikdir və çoxsahəli sistem üzrə fəaliyyət göstərir. Bazarın quruluşu və sistemi onun obyektləri, subyektləri, məkan əlamətləri, əmtəə təminatı, rəqabət səviyyəsi, satış xarakteri, əmtəənin çeşidi və s. xüsusiyyətlərə görə xarakterizə edilir. Bunları nəzərə alan İqtisadiyyat Nazirliyi təqdim etdiyi baza-ssenaridə əmtəə bazarında orta illik inflyasiya göstəricisini 2023-cü ildə 9,5, 2024-cü ildə isə 5,3 faiz proqnozlaşdırıb. Qeyd edək ki, bu proqnozlarda Nazirlər Kabineti və Mərkəzi Bankın həyata keçirdikləri antiinflyasiya tədbirlərinin gözlənilən nəticələri nəzərə alınıb.

Bir daha vurğulayaq: makroiqtisadi sabitliyin qorunması ölkənin inkişafının davamlı olması üçün əsas şərtdir. Bu məqsədlə fiskal və monetar siyasətlərin əlaqələndirilməsinin gücləndirilməsi milli valyutanın mübadilə məzənnəsinin cari ildəki kimi sabit qalmasını (1 dollara qarşı 1,7 manat) dəstəkləyəcəkdir. 2024-cü ildə əsas neft-qaz kontraktları çərçivəsində investisiya qoyuluşlarının azalma fazasında olması nəzərə alınmaqla əsas kapitala investisiyalar üzrə 1 faiz artım olacağı, o cümlədən qeyri-neft (qaz) sektoru üzrə əsas kapitala investisiyaların 3 faiz artacağı proqnozlaşdırılır.

Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinin reallaşdırılması, işğaldan azad olunmuş regionların ölkə iqtisadiyyatına reinteqrasiyası və həmin regionların inkişafı ilə bağlı olan investisiya və yenidənqurma siyasəti çərçivəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi bu göstəricilərin daha da yaxşılaşmasına şərait yaradacaqdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidənqurulması, abadlıq-quruculuq işlərinin həyata keçirilməsi sayəsində bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası təmin olunacaq ki, bu da öz növbəsində iqtisadiyyatın bir çox sektorunun inkişafı üçün yeni imkanlar yaradacaqdır. Həmçinin qeyd edilən ərazilərdə uzun illər sonra kommunikasiya xətlərinin açılması iqtisadi cəhətdən müsbət tendensiyalara rəvac verməklə yanaşı, regionda sülhün və təhlükəsizliyin də bərqərar olmasına xidmət edəcəkdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## SKSP-nin iki rezidenti ixracatçı subyektlərin reytinqində ilk onluğa daxil olub

**Sənaye parkları ölkədə qeyri-neft sektorunun davamlı inkişaf etdirilməsində, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılmasında mühüm rol oynayır.**




Sənaye parklarının rezidentləri tərəfindən istehsal olunan məhsullar ölkədə daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, "Made In Azerbaijan" brendi ilə bir çox ölkəyə ixrac edilir.

"Trend" İqtisadi Zonaların İnkişafı Agentliyinə istinadən xəbər verir ki, Sumqayıt Kimya Sənaye Parkının (SKSP) rezidentləri "SOCAR Polymer" MMC və "STP" MMC-yə məxsus "STP Global Cable" MMC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanan "İxrac İcmalı" jurnalının 2023-cü ilin oktyabr ayı üzrə qeyri-dövlət və dövlətə məxsus olan ixracatçı subyektlərin reytinqində ilk onluğa daxil edilib.

Reytinq cədvəlində "SOCAR Polymer" MMC dövlətə məxsus olan şirkətlərin siyahısında üçüncü, "STP" MMC-nin tərkibində fəaliyyət göstərən "STP Global Cable" MMC isə qeyri-dövlət ixracatçı subyektləri arasında altıncı yerdə qərarlaşıb.

2023-cü ilin 9 ayı ərzində "SOCAR Polymer" MMC 393 milyon manat, "STP Global Cable" MMC isə 31,5 milyon manat dəyərində məhsul ixrac edib.

## Azərbaycan Çin Beynəlxalq İdxal Sərgisində iştirak edir

**Bu gündən noyabrın 10-dək Şanxay şəhərində 6-cı Çin Beynəlxalq İdxal Sərgisi keçirilir.**



Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpinin təşəbbüsü və himayəsi ilə keçirilən sərgi xarici məhsulların və xidmətlərin Çin bazarına girişini təşviq etmək məqsədi daşıyır. Pandemiyadan sonra ilk dəfə təşkil olunan sərgidə 154 ölkə və beynəlxalq təşkilatdan 3400 iştirakçı, o cümlədən "Global Fortune 500" siyahısından 289 şirkət qatılıb. Ümumilikdə 400 minə yaxın peşəkar ziyarətçi qeydiyyatdan keçib.

Şanxay sərgisində 69 ölkənin milli pavilyonu ilə yanaşı, müxtəlif sahələr üzrə şirkətlərin biznes pavilyonları da fəaliyyət göstərir. Sərginin gedişində 400-dən çox məhsul, texnologiya və xidmət ictimaiyyətə ilk dəfə təqdim olunur.

Çin Beynəlxalq İdxal Sərgisinin davamlı iştirakçılarından olan Azərbaycanın milli pavilyonunda ölkəmizin rəqabətqabiliyyətli məhsulları təqdim edilir.

Sərgidə Azərbaycandan Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinin üzvləri sərgi çərçivəsində təşkil olunacaq forumlarda iştirak və çıxış edəcəklər. Bundan başqa, ikitərəfli görüşlərdə Azərbaycan ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişaf məsələləri müzakirə olunacaq.

## Şuşada İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun iclası keçirilib

**Şuşada Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.**

İqtisadiyyat nazirinin birinci müavini, İşçi Qrupun rəhbəri Elnur Əliyev işğaldan azad edilmiş ərazilərin inkişafı istiqamətində kompleks proqramların, genişmiqyaslı bərpa tədbirlərinin, o cümlədən infrastruktur layihələrinin icra olunduğunu qeyd edib. Bildirilib ki, bu ərazilərdə məskunlaşacaq əhalinin məşğulluq imkanlarının genişləndirilməsi, əmək bazarının tənzimlənməsi əsas vəzifələr sırasındadır. Elnur Əliyev işğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması üçün əlverişli şəraitin yaradılması məqsədilə görülən işlər, o cümlədən təbii resursların iqtisadi dövriyyəyə cəlb edilməsi, vergi və gömrük güzəştləri, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və s. barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Şuşa şəhərində aparılan bərpa və quruculuq işləri barədə məlumat verib, işğaldan azad edilmiş ərazilərə köçürülən əhalinin məşğulluğunun təmin edilməsində dövlət və özəl müəssisələr tərəfindən xüsusi yanaşmanın tətbiqi ilə özəl-dövlət tərəfdaşlığının vacibliyini qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, İdarələrarası Mərkəzin Katibliyinin rəhbəri Nüsrət Süleymanov işğaldan azad edilmiş ərazilərdə məşğulluğun təmin olunması ilə bağlı fikirlərini bölüşüb, hazırda icrası davam edən və planlaşdırılan genişmiqyaslı infrastruktur layihələrinin icrasında işçi qruplarının əlaqələndirici rolunu vurğulayıb.

İşçi Qrupun digər üzvləri təmsil etdikləri qurumlar tərəfindən bu sahədə görülmüş işlər barədə məlumat veriblər. İclasda təqdim olunan hesabatlar İşçi Qrupunun üzvləri tərəfindən müzakirə edilib.

İqtisadi Məsələlər üzrə İşçi Qrupunun üzvləri Şuşada həyata keçirilən layihələrlə tanış olublar.



## 2023-cü ilin layihələrinin hamısı uğurla başa çatdırılacaq

### bp-nin üç rüblük hesabatı belə deməyə əsas verir

**Cari ilin əvvəlindən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından hasilat sabit və təhlükəsiz şəkildə davam edib. AÇG-dən hasilat gündə orta hesabla 368 min barel, ümumilikdə ilin ilk doqquz ayında təxminən 100 milyon barel, yəni 14 milyon ton olub.**

Bu barədə bp şirkətinin ilin ötən üç rübünə aid hesabatında məlumat verilib. Bildirilib ki, doqquz ayda "Çıraq"dan gündəlik orta hasilat 23 min, "Mərkəzi Azəri"dən 96 min, "Qərbi Azəri"dən 89 min, "Şərqi Azəri"dən 59 min, "Dərinsulu Günəşli"dən 67 min və "Qərbi Çıraq"dan 34 min barel təşkil edib. AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,5 milyon kubmetr, ümumilikdə isə 1,5 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

"Azəri Mərkəzi Şərqi" (ACE) platformasının dayaq blokunun tikildiyi Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodundan dənizə yola salınması və AÇG sahəsində suyun 137 metr dərinliyində öz daimi yerində quraşdırılması da bu aylarda baş tutub. ACE platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində davam edib.

Aprelin 4-də Prezident İlham Əliyev üst modulların inşa edildiyi sahəyə baş çəkərək tikintisi artıq başa çatmış qurğu dənizə öz daimi yerinə yola salınmazdan əvvəl onun hazırlıq vəziyyəti ilə tanış olub.

Əsas istismar sınaqları bitdikdən sonra, avqust ayının 7-də ACE platformasının üst modulları AÇG sahəsinə yola salınıb. Platforma yaşayış üçün hazır olandan sonra, sentyabrın 13-də isə bütün əməliyyatlar heyəti oraya köçüb.

Üçüncü rübün sonuna ACE layihəsi üzrə işlər ümumilikdə 94 faiz tamamlanıb. 2024-cü ilin əvvəlində platformadan hasilata başlamaq üçün tələb olunan bütün digər işlər və hazırlıqlar qrafikə uyğun aparılır.

9 ay ərzində "Şahdəniz" yatağından Azərbaycan ("Azərkontrakt" ASC-yə), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyekt üçün Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinə və Avropadakı alıcılara mavi yanacağın çatdırılması davam edib. Bu dövrdə yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 20 milyard standart kubmetr qaz və 3 milyon tondan çox (təqribən 27 milyon barel) kondensat hasil olunub. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 72,1 milyon (ildə təqribən 26,3 milyard) standart kubmetrdir.

İxrac da ahəngdar davam edir. Doqquz ay ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 23 milyon ton (təxminən 171 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 238 tankerə yüklənib və dünya bazarlarına yola salınıb. Əməliyyatçı şirkətin hesabatında həmçinin xatırladılır ki, 1768 kilometr uzunluğunda bu boru kəməri 2006-cı ilin yayında istismara veriləndən ümumilikdə təqribən 554 milyon tondan çox (4,2 milyard barel) xam neft nəql edib. Bu neft həcmləri Ceyhanda 5482 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC, əsasən, Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

İlin əvvəlindən Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) ixrac üçün gündəlik orta ötürücülük gücü 60,5 milyon kubmetr qaz təşkil edib. Xatırladaq ki, CQBK 2006-cı ilin sonlarında istismara verilib və həmin vaxtlardan Azərbaycan, Gürcüstan və Türkiyəyə "Şahdəniz" qazını çatdırır. Bu kəmərin genişləndirilməsi sistemi isə kommersiya qaz həcmlərinin 2018-ci ilin iyun ayından Türkiyəyə, 2020-ci ilin dekabr ayından Avropaya nəqlinə başlayıb.

Geoloji kəşfiyyata gəldikdə, bp bildirir ki, AÇG strukturunda istismarda olan neft yataqlarının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədilə yeni bir qiymətləndirmə quyusu qazılıb. Hazırda dərin qaz laylarının potensialını öyrənmək üçün quyudan əldə olunmuş məlumatın təhlili aparılır.

"Şahdəniz" müqavilə sahəsində də yeni bir kəşfiyyat quyusunun qazılmasına başlanıb. Qazma işləri davam edir. "Şəfəq-Asiman" blokunda qazılmış ilk kəşfiyyat quyusundan əldə edilmiş məlumatların təhlili nəticələrinin interpretasiyası isə başa çatdırılıb. Quyuda aşkar edilmiş karbohidrogen ehtiyatlarının dəyərləndirilməsi və kəşfiyyat işlərinin növbəti mərhələsinin planlaşdırılması aparılır.

Əməliyyatçı şirkətin hesabatında işçi heyəti haqqında da məlumat var. Belə ki, üçüncü rübün sonunda bp-də işləyən Azərbaycan vətəndaşlarının sayı 2395 nəfər olub. Buraya müddətli müqavilə əsasında işləyənlər də daxildir. 2018-ci ilin ortalarından bp-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edir. İxtisası olmayan işçilər isə hamısı yerli vətəndaşlardan ibarətdir.

Nəhayət, sosial sərmayələr haqqında. bp Xəzərdəki layihələrinin uğurunu həm də regiondakı ölkələrin əhalisi üçün hiss edilən faydalar yaratmaqda görür. Buna nail olmaq üçün şirkət və tərəfdaşları mühüm sosial investisiya layihələrini həyata keçirməyə davam edir. 2023-cü ilin ilk üç rübü ərzində bp və onun əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları sosial proqramlara Azərbaycanda 1,6 milyon dollardan artıq vəsait xərcləyiblər. Bundan əlavə, bp ayrıca bir şirkət kimi öz adından Azərbaycanda sponsorluq etdiyi layihələrə doqquz ayda təxminən 0,8 milyon dollar vəsait yönəldib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Wyndham Garden Baku" ® Hoteli 1 yaşını qeyd edir

**Hotel 25 oktyabr 2022-ci tarixdən fəaliyyət göstərir. Rəsmi açılış mərasimi 27 yanvar 2023-cü il tarixdə turizm agentlikləri, müxtəlif xarici səfirliklərin nümayəndələri, şirkət rəhbərləri və idman qruplarının iştirakı ilə baş tutub.**





"Wyndham Garden Baku" hoteli ümumi 88 otaq, konfrans, iclas və banket zalları, restoran, SPA və fitnes xidmətlərini qonaqlara təklif edir. Hava limanından və şəhər mərkəzindən cəmi 15 dəqiqə məsafədə yerləşən hotel qonaqların rahatlığını nəzərə alaraq xüsusi transfer xidmətini təklif edir. 100 nəfərə yaxın peşəkar və gülərüz personalımız günün 24 saatı qonaqlara xidmət göstərməkdən məmnundur.

Hotel ərazisində fəaliyyət göstərən MAGNOLIA restoranı sizə yerli təamlardan tutmuş dünya mətbəxinə qədər müxtəlif ləzzətli yeməklər və yüksəkkeyfiyyətli xidmət təqdim edir.

"Wyndham Garden Baku"nun əsas konsepsiyasının "biznes hotel" olmasına baxmayaraq, burada müxtəlif tədbirlərin, əlamətdar günlərin və şənliklərin keçirilməsinə uyğun şərait yaradılıb.

Hotel ərazisində fəaliyyət göstərən "Olive SPA & Wellness" mərkəzi isə qonaqların asudə vaxtının həm maraqlı, həm də faydalı keçirməsi üçün nəzərdə tutulub. Burada 25 metr uzunluğunda hovuz, ayrıca kardio və fitnes zalları, saunalar, türk hamamı, çoxsaylı masaj, müalicə xidmətləri təklif olunur. Fitnes sahəsindəki "Vitamin Bar" ilə qonaqlar idmandan sonra bədəni qidalandırmaq üçün təravətləndirici, sağlam içkilər və yeməklərin tam çeşidini dadmaq imkanı əldə edirlər. Hotelin həm yeraltı, həm də açıq sahədə geniş parkinq yerləri var.

Biz hamı üçün hotel səyahətini mümkün edirik. Qonağımız olun və əbədi xatirələr qazanın!


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |


RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
TÜRK ƏSRİ
Prezident İlham ƏLİYEV: "Dostluğumuz, qardaşlığımız əbədi olacaq"
Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri
Astanada Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub
Azərbaycan Prezidenti İlham Əliyev Astanada Türk Dövlətləri Təşkilatının X yubiley Zirvə görüşündə iştirak edib
Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub
Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri başa çatıb
Dünya mediası Türk Dövlətləri Təşkilatının Astanadakı yubiley Zirvə görüşünə geniş yer ayırıb
Prioritet hədəflər üçün etibarlı maliyyə təminatı
Milli Məclisin komitələrinin birgə iclaslarında 2024-cü ilin dövlət büdcəsi layihəsi müzakirə edilib
Davam edən mina terroru
Haqqı haqsızlığa qurban verənlər
Kanada xarici işlər nazirinin anti-Azərbaycan mövqeyi təmsil etdiyi ölkənin adına ləkədir
azerbaijan-news.az

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycan cüdoçusu növbəti dəfə Avropa çempionu olub




**Azərbaycan cüdoçusu Hidayət Heydərov Fransanın Monpelye şəhərində keçirilən Avropa çempionatında qızıl medal qazanıb.**

AZƏRTAC xəbər verir ki, 73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız finalda ispaniyalı Salvador Kases Roka ilə qarşılaşıb. Rəqibinə qalib gələn H. Heydərov üçüncü dəfə Avropa çempionu olub.

Qeyd edək ki, bu, Azərbaycanın cüdo yığmasının hazırkı Avropa çempionatında hələlik ilk medalıdır.

# AZAL Bakıdan Naxçıvana və əks-istiqamətdə səyahəti əvvəlcədən planlaşdırmağı tövsiyə edir

**Azərbaycanda noyabrın 8-dən 12-dək uzunmüddətli qeyri-iş günlərini nəzərə alaraq, AZAL reyslərə tələbatın artması ilə əlaqədar Bakı-Naxçıvan arasında uçuşlara aviabiletlərin əvvəlcədən əldə edilməsini tövsiyə edir.**

Aviadaşımaların pik dövrü həmişə sərnişin axınının və uçuşlara tələbatın artması ilə müşayiət olunur.

Qeyd edək ki, AZAL sərnişinlərin rahatlığına və seçiminə xüsusi önəm verir. Hazırda Bakıdan Naxçıvana və əks-istiqamətdə gündəlik uçuşların sayı 6 reys təşkil edir.

Zərurət olduqda, aviaşirkət sərnişinlərin tələbatını ödəmək üçün əlavə reyslər açmağa hazırdır.

Aviabiletləri aviaşirkətin www.azal.az rəsmi saytından, mobil tətbiqdən və ya AZAL-ın kassalarından əldə etmək mümkündür.

"Azərbaycan Hava Yolları" www.azal.az saytından aviabiletlərin əldə edilməsi haqqında ətraflı məlumatı özündə əks etdirən video-təlimat hazırlayıb. Video-təlimatla aşağıdakı linkdən tanış ola bilərsiniz: https://youtu.be/9PiPTkNkBSU.

***"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidməti***

# "Azərenerji" ASC 110/35/6 kV-luq "Ələt" Yarımstansiyasının 2x80 MVA gücündə transformatorla yenidən qurulması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 3 000 (üç min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər.

Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 598-26-96, 490-09-27.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi, zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 30 000 000 (otuz milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərin tikintisi işlər üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **15 dekabr 2023-cü il saat 15:00-a** qədər bank təminatını, tender təklifini isə 2**5 dekabr 2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına, "Azərenerji" ASC-nin Ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **26 dekabr 2023-cü il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Avropa sahillərinə daha bir şiddətli qasırğa yaxınlaşır

**Fransada tüğyan edən "Kiaran" qasırğası noyabrın 4-də Atlantik okeanından Fransanın qərbinə doğru irəliləyən "Dominqos" qasırğası ilə əvəzlənəcək. Yeni qasırğa güclü külək və leysan yağışları ilə müşayiət olunacaq.**

AZƏRTAC xəbər verir ki, Meteo-France" yeni qasırğasının yaxınlaşması səbəbindən axşam saatlarından etibarən ölkənin on departamentində "narıncı" təhlükə səviyyəsi elan edəcək.

Meteoroloqlar, həmçinin Şimali Amerikada formalaşan aşağı təzyiq zonalarının şənbə günü Fransanın qərbində şiddətli küləyə və güclü yağışa səbəb olacağını bildirirlər. Fransa ilə yanaşı, İspaniya və Portuqaliyanın şimalı da günortadan sonra güclü külək və intensiv yağıntı ilə üzləşəcək.

Qeyd edək ki, noyabrın 2-də Qərbi Avropanı vuran "Kiaran" qasırğası 13 nəfərin ölümü ilə nəticələnib. Qasırğa qitəyə güclü külək və çoxlu yağıntı gətirib. Bəzi yerlərdə küləyin sürəti saatda 200 kilometrə çatıb. Nəticədə yaşayış binalarına ciddi zərər dəyib, nəqliyyatın hərəkəti pozulub, ağacların aşması nəticəsində yollar bağlanıb.



# HƏMAS-ın hücumu nəticəsində ölən fransalıların sayı 39-a yüksəlib

**HƏMAS hərəkatının İsrailin nəzarətində olan ərazilərə hücumu nəticəsində həlak olan Fransa vətəndaşlarının sayı 39 nəfərə yüksəlib.**



AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Fransa Xarici İşlər Nazirliyinin saytında yerləşdirilib.

"Fransa təəssüflə daha bir vətəndaşının faciəvi surətdə öldüyünü bildirir. Beləliklə, HƏMAS hərəkatının hücumu nəticəsində həlak olan fransalıların sayı 39 nəfərə çatıb", - deyə nazirlikdən bildiriblər.

Xarici siyasət idarəsinin məlumatına görə, regionda doqquz Fransa vətəndaşı itkin düşüb. Onların bəzilərinin HƏMAS-ın əsirliyində olduğu istisna edilmir.

Xatırladaq ki, oktyabrın 7-də HƏMAS hərəkatının silahlı qanadı olan "İzzəddin əl-Kassam" briqadasının İsrailin nəzarətində olan ərazilərə hücumlarından sonra Yaxın Şərqdə vəziyyət gərginləşib. İsrail tərəfi HƏMAS-ın hücumuna cavab olaraq Qəzza sektoruna, Livan və Suriyanın ayrı-ayrı rayonlarına zərbələr endirib və Fələstin eksklavında yerüstü əməliyyata başlayıb.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Akif Rəsulov, Abbas Atakişi, Mamed Rüstəmov, Elnur Ağayev, Maarif Əliyev, Şamil Ağayev və İsmayıl Rəsulzadə Elçin Məmməd oğlu Kazımova anası

**ZEYNƏB XANIM KAZIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5312
Sifariş 2840

Qiyməti 40 qəpik